www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 fevral 2018-ci il Çərşənbə № 29 (6918) Qiyməti 60 qəpik

**Xəbər**

**Mənzil fırıldaqçılığına son-yeni binalarla bağlı inqilabi yenilik**

yazısı səh.14-də

**Gündəm**

**Müxalifət "seçkiyə gedək-getməyək" dilemması qarşısında**



Milli Şura boykot qərarı verib; bəs digər partiyalar?

yazısı səh.3-də

**ABŞ-dakı müəyyən mərkəzlərin seçkidə öz namizədi ola bilər-iddia**

yazısı səh.9-da

**REAL-dan Siyavuş Novruzovun sözlərinə cavab**

yazısı səh.10-da

**Bayıldakı sürüşmə zonasında müəmmalı vəziyyət**

yazısı səh.12-də

**Apreldən Qarabağ danışıqları intensivləşəcək - ekspertlər**

yazısı səh.11-də

**Məktəb direktoru ilə aktyorun davası böyüdü**

yazısı səh.12-də

**Reket jurnalistlərin məhkəməsinə intim videoları çəkilənlər gəldi**

yazısı səh.14-də

**Mayadək ciddi kadr islahatları olmaya bilər**

yazısı səh.5-də

**ABŞ və Asiya fond birjalarının çöküşü-varlıların beli qırıldı**

yazısı səh.6-da

**Aşıq Ələsgər haqda kitabdakı saxtakarlığın ifşası aranı qatdı**

yazısı səh.13-də

**Ölkədə yayılan xəstəlik mübahisə doğurdu: paraqrip, yoxsa...**

yazısı səh.15-də

# ABBAS ABBASOVUN DAĞISTANDAKI BİZNESİ ÇÖKDÜ: XƏZƏRİN O BİRİ TAYINDA DA İFLAS

Dağıstandakı antikorrupsiya həbsləri bu respublikada geniş biznesi olan baş nazirin sabiq müavinini "vurdu"; artıq bəzi obyektləri satışa çıxarılıb, bəzilərinin isə qapılarına qıfıl vurulub; Abbasovların dayağının da başı dərddə...




yazısı səh.5-də

# Ermənistanın dəhliz arzusu dəfn edilir - Tiflisdən bəd xəbər

Növbəti Rusiya-Gürcüstan danışıqları nəticəsiz bitdi; **politoloq:** "Tiflis və Moskva bu məsələdə uzun müddət konsensusa gələ bilməyəcək, çünki..."

yazısı səh.8-də



**Ərdoğan ABŞ-a meydan oxudu - "Menbicə girəcəyik..."**

yazısı səh.6-da



*İlham Şaban:*

**"Neft ehtiyatlarını gələcək nəsillərə saxlamaq mənasız işdir"**

yazısı səh.15-də



**İlqar Məmmədovun həbsinin beş ili-həyat yoldaşı danışır**

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

**Azərbaycanda aprelin 11-də növbədənkənar prezident seçkisi qərarı müxalifət sıralarında çaxnaşmaya səbəb olub. Bəzi ekspertlər belə iddialar irəli sürməyə başlayıb ki, seçkinin önə çəkilməsi müxalifətə seçkini boykot etmələri üçün bəhanə olacaq. Artıq Milli Şura seçkini boykot qərarı verdiyini bəyan edib. Bu barədə qurumun sədri Cəmil Həsənli özünün sosial şəbəkə hesabında fövqəladə toplantı keçirdiklərini, boykot və mart ayından etibarən mitinqlərə başlamaq qərarı verdiklərini açıqlayıb. AXCP sədri Əli Kərimli də seçkiləri boykot edəcəklərini və onun legitimliyini şübhə altına almaq üçün etiraz aksiyalarına başlayacaqlarını bildirib.**

# Müxalifət "seçkiyə gedək-getməyək" dilemması qarşısında

## Milli Şura boykot qərarı verib; bəs digər partiyalar?



Liderləri həbsdə olan REAL hərəkatı da növbədənkənar seçkilərin nəticələrini tanımayacaqlarını bəribaşdan elan edib. İlqar Məmmədovun həbsxanadan vətəndaşları bu seçkiləri boykot etməyə çağıracağını bildirib.

Seçkidə İsa Qəmbərin namizədliyi ilə iştirak qərarı olan Müsavat Partiyası isə hələ ki növbədənkənar seçki ilə bağlı son qərarı qəbul etməyib. Partiyanın başqanı Arif Hacılı deyib ki, bu həftə partiya Məclisinin növbədənkənar sessiyası olacaq və növbədənkənar seçki ilə bağlı hansı taktikanı seçəcəklərini müəyyənləşdirəcəklər. Partiyanın bir qədər əvvəl namizədliyini irəli sürdüyü İsa Qəmbər isə bildirib ki, partiya nə qərar qəbul etsə ona tabe olacaq.

**AĞ Partiyanın prezidentliyə namizədi Tural Abbaslı isə boykot qərarının düzgün olmadığı fikrindədir. "Yeni Müsavat"a açıqlamasında T.Abbaslı seçkidə iştirak etmək qərarının üzərində dayandığını dedi:** "Siyasi partiyaların yaranma və fəaliyyət göstərmə məqsədi hüquqi yolla hakimiyyətə gəlməkdir. Hüquqi yolla da hakimiyyətə gəlməyin hələ ki yeganə yolu seçkilərdir. Yəni dolayısıyla desək, seçkilər partiyaların hakimiyyətə gəlməyi və ya siyasi mövqelərini möhkəmləndirməyi üçün əlverişli şansdır. Hələ nəzərə alsaq ki, biz AĞ Partiya olaraq yeni yaranmış partiyayıq, o zaman belə şanslar bizim üçün ikiqat əhəmiyyətlidir. Odur ki, seçkilərin önə çəkilməsi ilə bağlı xəbərlər yayılan kimi biz seçkilərdə iştirak edəcəyimiz barədə bəyanat verdik. Biz çalışacağıq ki, məhdud resurslarımızla seçkidə iştirak edək. Namizədlik üçün lazım olan imzaları toplamaq xeyli ağır prosesdir. Biz prosesə qoşulub tam gücümüzlə iştirak etməyə çalışacağıq, alınıb-alınmayacağını isə zaman göstərəcək. Boykot məsələsinə gəldikdə isə AĞ Partiya üçün boykot variantı yoxdur. Biz bu yolu uğurlu yol hesab etmirik. Çünki boykotun proseslərə hər hansı bir real təsir imkanlarına inanmırıq.

Təəssüflər olsun ki, bugünkü müxalifət də xalqda hərəkətlilik yaratmaq gücündə deyil. Xalqın itirilmiş etimadı buna imkan vermir. Beynəlxalq aləmin isə prosesə reaksiyalarını illərdir ki, görürük. Seçki bitdikdən həmən sonra bəzi qüsurların olduğunu söyləyirlər və ardınca isə bunu "demokratiyaya doğru növbəti addım" kimi dəyərləndirərək hakimiyyətlə ən yüksək səviyyədə əməkdaşlıq edirlər. Real təzyiqlər, sanksiyalar isə hər zaman kimi bizim istəyimiz olaraq gözümüzdə qalır. Dediklərimi nəzərə alanda görərik ki, boykotun heç bir əhəmiyyəti qalmır. Əksinə, seçki prosesində yaranmış əlavə imkanlardan istifadə edib xalqa xitab etmək imkanlarını qaçırmış oluruq. Mən düşünürəm ki, proseslərdə iştirak edib nələrəsə müsbət mənada təsir etməyə çalışmaq lazımdır və biz AĞ Partiya olaraq buna çalışırıq".

**T.Abbaslı vurğuladı ki, kimlərinsə boykot qərarı və mitinqlərə başlamaq qərarı onların hüququdur:** "Hər bir siyasi qüvvə və ya siyasi lider verdiyi siyasi qərarın nəticələrini özü görəcək. Yəni əgər doğru addım atılıbsa, müsbət, yanlış qərar verilibsə, mənfi nəticələri həmin qüvvənin qazancı olacaq. Ümumən bu günə qədər atılan addımları analiz etsək görərik ki, hələlik müsbət nəticələr yoxdur. Demək ki, metodu dəyişmək barədə düşünmək zamanıdır".

**Yeni AXCP-nin namizədi Razi Nurullayev də boykotun zərər gətirəcəyi düşüncəsində olduğunu dedi. Onun sözlərinə görə, əgər siyasi partiya seçkiləri boykot edirsə, o zaman siyasi partiyanı buraxmalıdır:** "Biz bilirik ki, nəticələr nə olacaq. Məgər 2013-də nəticələrin bəlli olduğunu bilmirdik? Bilirdik. Bəs onda niyə iştirak etdik? Biz iştirakın tərəfdarıyıq və əlimizdən gələni edəcəyik. Əgər yaranan vəziyyət imkan verməsə, o zaman mövcud namizədlərdən birinə dəstək də verə bilərik. Bütün imkanlar tükənsə, məcburən boykot qərarına qoşularıq. Yenə də deyirəm ki, boykot ziyanlıdır. Boykota gedən partiyalar özünü buraxsın və ya fəaliyyətini dondursun, əvəzində ümumxalq hərəkatı bəyan etsin. Bax, xalq bunu qəbul edər. Amma siyasi partiya ola-ola boykot qərarını qəbul etməz. Biz seçkidə iştirak edib, hədəfimizi 11 apreldən sonraya hesablaya bilərik Qaldı ki, təyin olunan mitinq və etiraz aksiyalarına. Bunun vacib olduğu düşüncəsindəyəm. Bununla yanaşı, bu da bir təşkilatın yox, ümumxalq mitinqi olmalıdır. Məsələn, qoy olsun adı Azərbaycan xalqının ümumxalq etiraz mitinqi. Heç kimin də adı olmasın, qoy olsun xalqın mitinqi. Təşkilatçıları da seçək xalqın fəallarından, biz isə təşkilatlar olaraq dəstək verək və iştirak edək. Yoxsa yenə də mitinq dalğalarını əvvəlki tale gözləyir. Bir-iki şüar və sonra şirin yuxular. Xalqın isə iradəsi və dirənişi qırılacaq. Qoy öncül xalq olsun, biz isə onu yönləndirək. Unudaq adımızı, partiyamızı, şəxsi nüfuz və populyarlığımızı və siyasi dividentlərimizi".

**AMİP lideri Etibar Məmmədov isə bildirib ki, aprelin 11-də növbədənkənar prezident seçkisi normal addımdır:** "Burada qeyri-adi heç nə yoxdur. Sərəncam imzalanıbsa, ondan irəli gələn məsələlər icra olunmalıdır. Kim seçkilərdə iştirak etmək istəyirsə, bu qrafikə uyğun iş aparmalıdır. Yəni burada konstitusiyaya zidd nəsə yoxdur".

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə isə modern.az-a açıqlamasında Milli Şuranın boykot qərarına münasibət bildirib:** "Prezidentin növbədənkənar seçki ilə bağlı sərəncamı konstitusiya tələblərinə uyğun və tamamilə qanuni bir sənəddir. Növbədənkənar seçkinin keçirilməsi praktikası dünyada geniş yayılıb. Azərbaycanda birinci dəfə keçirildiyinə görə xüsusi maraqla qarşılanır. Prezident ya da parlament seçkilərinin nə vaxt keçirilməsi ciddi siyasi qüvvələr üçün böyük əhəmiyyət daşımır. Çünki seçkilərə hazırlıq tək seçki prosesi müddətində deyil, uzun illərin fəaliyyətinin nəticəsi olur. Kimlərinsə seçkidə iştirak etməmək barədə bəyanatı onların seçkiyə hazırlaşmadığını, hər hansı bir ciddi sosial bazalarının olmadığının bir daha sübut edir. Seçkinin önə çəkilməsinin səbəbləri barədə rəsmi dairələr tərəfindən kifayət qədər aydın məlumat verilib. 11 apreldə seçkinin demokratik şəraitdə baş tutmasına heç bir şübhə yoxdur. Hesab edirəm ki, kimlərinsə boykot barədə çağırışları onların seçkiyə hazır olmadıqlarının göstəricisidir. Bu gün onların cəmiyyətə təqdim etməyə proqramları, cəmiyyəti birləşdirəcək namizədləri yoxdur. Azərbaycanın problemlərində iştirakı ilə bağlı hər hansı bir konsepsiyası mövcud deyil. Bu baxımdan onların bəyanatlarını ciddi qəbul etmək olmaz. Azərbaycan cəmiyyəti seçkiyə ciddi surətdə köklənib".

**Qeyd edək ki, dünən MSK-nın toplantısı olub və seçki ilə bağlı qaydalar qəbul edilib.**

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**



## MSK-dan mühüm qərarlar

### Prezidentliyə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi fevralın 27-dən martın 12-dək davam edəcək

**Növbədənkənar prezident seçkilərində prezidentliyə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi səsvermə gününə ən çox 50 gün, ən azı 30 gün qalanadək, yəni 2018-ci il fevralın 27-dən martın 12-si saat 18.00-dək davam edəcək.**

APA-nın məlumatına görə, Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin edilməsi, növbədənkənar prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkətlərin və tədbirlərin Təqvim Planına əsasən, Azərbaycanın bütün ərazisində seçkilərin müşahidəsinin aparılması, ərizələrin MSK-ya təqdim edilməsi seçkilərin təyin edilməsi barədə qərar qüvvəyə mindikdən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalana qədər, yəni aprel ayının 1-dək MSK-ya müraciət edəcəklər.

Seçki dairəsi ərazisində müşahidələrin aparılmasına dair ərizələr seçkilərin təyin olunması barədə qərar qüvvəyə mindikdən başlayaraq seçkilərə 5 gün qalanadək, yəni aprelin 6-dək dairə seçki komissiyalarına təqdim edilə bilər.

Seçici siyahılarında əlavə və dəqiqləşdirmələrin aparılması səsvermə gününə azı 35 gün qalanadək, yəni martın 7-nə qədər davam edəcək.

Seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır.

Bu proses də martın 19-da başlayır, aprelin 10-u saat 8.00-da dayandırılacaq.

"Bəzi dövlətlər digər xalqların daxili işlərinə qarışmağa maraq göstərir". APA-nın məlumatına görə, bunu bu gün (fevralın 6-da-red.) Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında **MSK sədri Məzahir Pənahov** bildirib. MSK sədri deyib ki, bu, reallıqdır: "Reallıq olduğuna görə buna göz yummaq olmaz. Ona görə də bundan narahat olmaq da lazım deyil. Yer kürəsi kiçikdir, insanlar bir yerdə olmağı bacarmalıdır. Birgə fəaliyyət göstərməkdən başqa yolumuz yoxdur. Seçkinin nəticələrini xalq qəbul etməlidir, digər məqamlar önəmli deyil. Azərbaycan seçicilərinin yarıdan çoxunun səsini alan şəxs prezident seçiləcək. Xalqın iradəsindən yüksək heç nə yoxdur".

**M. Pənahov qeyd edib ki, MSK yerli və xarici KİV-in əməkdaşlarına daim açıqdır:** Seçki prosesində milyonlarla insan iştirak edir. Ona görə də xırda çatışmazlıqların olması normaldır. İdeal heç nə yoxdur".

# Sabiq müşavirin həbs etdirdiyi qohumu xəstəxanaya aparıldı

## Vəkil Türkel Süleymanlı: "Ondan soruşmalıydılar ki, sən məmur adamsan, sənin 10-20 kiloqram qızılın haradandır?"

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun müşaviri olmuş Çingiz Baxşıyevin həbs etdirdiyi qohumu Rövşən Əhmədovun səhhəti ağırlaşıb. Böyrəyində kəskin ağrılar əmələ gələn Rövşən Əhmədov təcili şəkildə Bakı İstintaq Təcridxanasından Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülüb. Bu haqda redaksiyamıza onun vəkili Türkel Süleymanlı məlumat verib. Deyib ki, müvəkkilinin müayinəsi zamanı onun böyrəyində ciddi fəsadların olduğu üzə çıxıb. Vəkil deyib ki, müvəkkilinin böyrəyində təcili əməliyyata ehtiyac var.**

Vəkil deyib ki, Bakı Apelyasiya Məhkəməsində işə baxılarkən müvəkkili barəsində qeyri-qanuni olaraq həbs qərarı verilib: "Bununla bağlı Ali Məhkəməyə şikayət vermişik. Məhkəmə şikayəti baxılmamış saxlayıb. Həmin qərardan Konstitusiya Məhkəməsinə şikayət edəcəyik. Tamamilə qanunsuzluq edib bəraət almış şəxs barədə qətimkan tədbiri seçib. Bundan başqa, Rövşən Əhmədov həbs olunan anda psixiatrik xəstəxanada olub. Məhkəmə bilə-bilə ki, Rövşən Əhmədov xəstəxanadadır, barəsində həbsli axtarış verib. Bu, məhkəmənin qərəzlindən başqa bir şey deyil. Hakim Əmir Bayramovun ittihamedici əsasla hökm çıxaracağına da əminəm".

**T.Süleymanlı deyib ki, bu, hakim Əmir Bayramovun ilk belə qərarı deyil:** "2017-ci ilin dekabrında müdafiə etdiyim digər bir şəxs barədə Bakı Ağır Cinayətlər Məhkəməsi 70-ci maddəni tətbiq etməklə şərti cəza çıxarmışdı. İş üzrə zərərçəkənlərin heç bir şikayətləri yox idi. Həmin adam xəstəxanada idi. Hakim Əmir Bayramov xəstəxanaya sorğu vermişdi və xəstəxanada olması haqda cavab da almışdı. Bunu bilə-bilə şəxsin barəsində axtarış verib həbs eləmişdi. Hakimin yeri bilinməyən, qaçıb gizlənən deyil, xəstəxanada olan şəxs barəsində axtarış qərarı verməsi hansı məntiqə sığır? Məhkəmənin qərəzi burada görünür".


Rövşən Əhmədov

**Rövşən Əhmədovun 700 min manatlıq ev alması ilə bağlı Çingiz Baxşıyevin vəkili Ceyhun Yusifovun fikirlərinə Türkel Süleymanlı belə cavab verib:** "Həmin fikirlər də hamısı ağ yalandır. 700 min manatlıq ev alınmayıb. Mən bütün jurnalistlərdən xahiş edirəm ki, belə bir yalan onlara deyilirsə, sənəd tələb etsinlər. Həmin evin ünvanı, harada yeləşməsi, nə vaxt və kim tərəfindən alınması haqda məlumatları alsınlar".

**Vəkil iş üzrə şahidlərlə bağlı da danışıb:** "Dırnaqarası şahidlər iş üzrə istintaq və məhkəmə dövründə olmayıblar. Şahid dedikləri kimlərdir - Çingiz Baxşıyev özü, həyat yoldaşı, onun qızları və yeznəsi. Bildiyimə görə, qarşı tərəf apelyasiya mərhələsində kənar şahidlər tutub gətirib. Sual olunur, 1 ildən çox istintaq, ardından da məhkəmə gedib, əgər şahidlər var idisə, niyə həmin vaxt təqdim olunmayıb? Bildiyim qədər bir taksi sürücüsü tapıblar və o da deyib ki, Rövşən Əhmədov gəlib mənə dedi ki, 30-40 dənə qızıl onluğum var, kömək edə bilərsən bunları sataq. Sual olunur, indiki vaxtda kimin qızıl satmaqda kimə ehtiyacı var? Taksi sürücüsünə müraciət etmək əvəzinə gedib istənilən zərgərə həmin qızılı sata bilməzdi?"

**Vəkil deyir ki, ittiham ancaq və ancaq Çingiz Baxşıyevin quru ifadəsinə əsaslanır:** "Çingiz Baxşıyevdən pulların mənbəyi haqda bir fikir soruşulmur. Ondan soruşmalıydılar ki, sən məmur adamsan, sənin 10-20 kiloqram qızılın haradandır? Bu gün kimsə çıxıb deyə bilər ki, mənim 80 min manatlıq kompüterimi oğurlayıblar. Ondan, hər halda, dediyini sübut edəcək kompüterin sənədini soruşan olacaq. Çingiz Baxşıyevdən soruşmayıblar ki, ay məmur, 800 min manat qiymətləndirdiyin qızılları haradan, nə vaxt almısan? Çingiz Baxşıyev istintaqda deyir ki, qızılları fevralın 12-də qızına təhvil verib. Rövşən Əhmədov isə deyir ki, fevralın 2-də təhvil verib. Çingiz Baxşıyev qızılları 12-də təhvil alıb və deyir ki, sonrakı dövrdə xəstə olduğundan martın 28-də skoçla bağlanmış bağlamaları açıb və görüb ki, qızılları əskik gəlir. Halbuki o, Gömrük Hospitalında fevralın 12-dən 14-nə qədər müalicə alıb. Bundan başqa, istintaq və məhkəmə dövründə sorğular verilib və deyilən dövrdə Çingiz Baxşıyevin Azərbaycandan xarici ölkələrə bir neçə dəfə gedib qayıtdığı məlum olub. Onun xarici ölkəyə gedib gəlməyə vaxtı olubsa, deməkdir, Bakının içində gedib qızının evində qızılları olan bağlamaları açıb baxmağa da vaxtı olub. Ay yarım içində həmin qızılların içinə bomba da qoymaq olardı, açıb götürmək də. Bundan heç kimin xəbəri də olmazdı. Fevralın 12-də Rövşən Əhmədovun qızının toyu olub. O da qızılları ona görə fevralın 2-də qaytarıb ki, evə gedib gələnlər çox olub. Tutaq ki, Rövşən Əhmədov qızılları qızının toyundan əvvəl oğurlayıb və toy günü də bağlamanı aparıb verib. Yəni ən azı düşünərdi ki, Çingiz Baxşıyev bağlamaları həmin gün, ertəsi gün açıb baxar və qızılların oğurlandığını görərdi, şikayət edərdi. Onu da tutub aparardılar. Heç şikayət etməyib, toyda gəlib onu biabır edərdi. Üstəlik, həmin bağlamalara ay yarım ərzində Çingiz Baxşıyevin qızının, kürəkənin, qulluqçularının da əl vurmaq imkanı olub. Bu adamlar deyirlər ki, biz toxunmamışıq. Onların dedikləri Quran ayəsi olur, Rövşən Əhmədovun dedikləri isə yalan olur? Rövşən Əhmədov supermendir ki, aylarla həbsdə qalır, məhrumiyyətlərə məruz qoyulur və qızılların yerini demir?"

**Bakı Apelyasiya Məhkəməsində sabiq nəqliyyat naziri Ziya Məmmədovun müşaviri Çingiz Baxşıyevin həbs etdirdiyi qohumu Rövşən Əhmədovun işi üzrə proses başlanıb. Çingiz Baxşıyev R.Əhmədovun onun qızıllarını oğurladığını iddia edir. Sonuncu isə ittihamı qəbul etmir və onun Çingiz Baxşıyevin "qara biznesi"nə bələdçiliyi olmasına görə susdurulması üçün şərləndiyini bəyan edib.**

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Bakıda iki zavodda müəmmalı partlayış









**Fevralın 5-də axşam radələrində Bakının Xətai rayonunda zavodda güclü partlayış baş verib.**

"Report"un məlumatına görə, əraziyə xeyli sayda yanğınsöndürən maşın və təcili tibbi yardım briqadası cəlb olunub. Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin Xətai rayon yanğından mühafizə hissəsindən "Report"a verilən məlumata görə, partlayış Radioquraşdırma zavodu ərazisində qeydə alınıb.

APA-nın xəbərində deyilir ki, hadisə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Radiozavod"da baş verib.

Partlayış yanğınla müşahidə olunub.

Yanğın tezliklə lokallaşdırılıb.

Fevralın 5-də Bakının Nərimanov rayonunda Keşlə qəsəbəsində yerləşən Qara Metal Zavodunda da yanğın xəbəri yayılıb. Yanğını söndürməyə FHN-in canlı qüvvəsi və texnikası cəlb olunub. Sonradan zavodun səlahiyyətli şəxsləri "Qafqazinfo"ya bildiriblər ki, yanğın zavod binasından kənarda, tullantılar olan ərazidə baş verib və sonra söndürülüb.

# Manat və iqtisadiyyat - seçki ərəfəsində nə gözlənilir...

## Ekspert: "Düşünmürəm ki, aprel ayında olacaq seçki ölkənin iqtisadi həyatında əhəmiyyətli dönüş nöqtəsi olsun"

**Azərbaycan növbədənkənar seçkiyə hazırlaşır. Prezidentin bununla bağlı fərmanından sonra Mərkəzi Seçki Komissiyası toplanaraq seçkini aprelin 11-nə təyin edib. Beləliklə, 2 aydan da az vaxtdan sonra ölkədə yeni prezident seçkisi keçiriləcək. Bu müddətdə Azərbaycanda iqtisadi vəziyyətə ciddi təsir göstərəcək amillər varmı? Seçkiyə qədər ölkədə inflyasiyanı sürətləndirəcək, manatın məzənnəsində kəskin dəyişikliklərə gətirəcək proseslər baş verə bilərmi?**

Sualları cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsəno**v bildirir ki, adətən seçki ərəfəsində hökumətlərin ehtiyatlı davranış nümayiş etdirməsi, sosial sabitliyin qorunması, əmək haqlarının artırılması istiqamətində müəyyən qərarların qəbul olunması, addımların atılması başadüşüləndir, geniş yayılmış haldır: "Amma bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, seçkinin keçirilib-keçirilməməsindən asılı olmayaraq, yaxın 2 ay ərzində həm məzənnə ilə bağlı, həm də digər makroiqtisadi göstəricilərlə bağlı ciddi dəyişikliklərin, mənfi olacağı gözlənilən deyil. Çünki hazırda Azərbaycan iqtisadiyyatı elə bir dönəm yaşayır ki, burada hər hansı kəskin dəyişikliklərin baş verməsi, xüsusilə inflyasiyanın sürətlənməsi kimi faktorlar gözə dəymir. Ümumiyyətlə, ilin ilk rübündə dövlət maliyyə sistemi daha zəif olur, fiskal xərcləmələrin aşağı səviyyəsi dövriyyədə olan pul kütləsinin az olmasını şərtləndirir, məcmu tələbin həcminə mənfi təsir göstərir. Bu dövrdə hər hansı risklərin ortaya çıxacağı gözlənilən deyil".

**Ekspert deyir ki, hökumət hər hansı təlatümün, makroiqtisadi risklərin, sosial təminatla bağlı çətinliklərin qarşısını almağa çalışacaq:** "Bu, heç də seçkidən sonra hansısa dəyişikliklərin olacağı anlamına gəlmir. Seçki sonrası da qeyd etdiyimiz müəyyən sabitlik davam edəcək. Xüsusilə manatın məzənnəsi ilə bağlı ciddi dəyişikliklərin olacağını şərtləndirə biləcək amillər, məzənnəyə təzyiq göstərəcək elementlər yoxdur. İnflyasiya, gözlənildiyi kimi, təxminən 10 faiz ətrafında olacaq. Mart ayında mövsümi amillərdən qaynaqlanan, bayram ərəfəsində xərcləmələrin və qiymətlərin artması gözləniləndir. Bu təsirləri də hökumət cilovlaya biləcək.

Düşünmürəm ki, aprel ayında olacaq seçki ölkənin iqtisadi həyatında əhəmiyyətli dönüş nöqtəsi olsun. Seçkiyəqədərki dövrdə də, seçkidən sonrakı dövrdə də makroiqtisadi trendlərdə kəskin dəyişiklik müşahidə olunmayacaq".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

**Dağıstandakı antikorrupsiya həbsləri bu respublikada geniş biznesi olan Azərbaycanın baş nazirinin sabiq müavini Abbas Abbasovun biznesinə ciddi təhlükə yaradıb. Bu barədə "Yeni Müsavat"a məlumat verən mənbə deyib ki, Abbas Abbasov və oğlu ciddi təlaş içərisindədirlər. Məlumdur ki, həbs edilən Mahaçqala meri Musa Musayev barəsində qaldırılmış cinayət işinin əsas motivi qanunsuz tikililərdir. Dağıstanın başçısı vəzifələrini müvəqqəti icra edən Vladimir Vasilyev həbslə bağlı deyib ki, sabiq mer tikinti və şəhərsalma kimi vacib normalara riayət etməyib. Bunun ardınca isə Dağıstanın baş nazirinin səlahiyyətlərinin müvəqqəti icraçısı Əbdüssəməd Həmidov saxlanılıb. Ə.Həmidovla bərabər onun iki müavini Federal Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb. Virtualaz.org Dağıstan mənbələrinə istinadən xəbər verir ki, Dağıstan rəhbərliyi bütün məmurlara respublikanın hüdudlarını tərk etməyi qadağan edib. Lakin bir qrup məmur Rusiya ərazisini tərk edərək Azərbaycana qaçmağa çalışıb.**




# Abbas Abbasovun Dağıstandakı biznesi çökdü: Xəzərin o biri tayında da iflas

## Dağıstandakı antikorrupsiya həbsləri bu respublikada geniş biznesi olan baş nazirinin sabiq müavinini "vurdu"; artıq bəzi obyektləri satışa çıxarılıb, bəzilərinin isə qapılarına qıfıl vurulub; Abbasovların dayağının da başı dərddə...

Bildirilir ki, Mahaçqaladan bir qrup məmur Azərbaycana keçmək üçün Stavrapol vilayətinə gedib. Lakin orada onları saxlayıblar və Dağıstana geri qaytarıblar.

Respublika başçısı səlahiyyətlərini icra edən Vladimir Vasilyev "qanunsuzluq dövrünün başa çatdığını" elan edib. Və bildirib ki, respublikada tikilən bütün qanunsuz obyektlər söküləcək. "Mən bütün tikinti aparanlara xəbərdarlıq edirəm, qanunsuzluq dövrü başa çatdı. Qanunsuz tikintilər daha olmayacaq. Kim ki, indi tikməkdə davam edir, xəbərdarlıq edirəm, pullarını boş yerə xərcləməsinlər. Söküləcək" deyə, Vasilyev bildirib.

Yəni artıq məsələ bu cür ciddiləşibsə və işə FTX qoşulubsa, Abbas Abbasov bunun nə demək olduğunu hamıdan yaxşı bilir...

Yada salaq ki, 2015-ci ildə deputat mandatını itirən Aydın Abbasov uzun müddətdir ki, atasının Dağıstandakı biznes planlarında yer alıb. Onun adı Dərbənd şəhərinin tarixi hissəsində yerləşən Nizami parkının yanında "Derbent-Plaza" yaşayış kompleksinin tikintisində şəriklərdən biri kimi hallanırdı. Rusiya saytları yazırdı ki, tikinti Dərbənddəki tarixi-mədəni əhəmiyyətə malik olan Nizami parkında həyata keçirilir. Sonradan sabiq deputat Dağıstanda yaşayış kompleksi tikdirməsi barədə xəbərləri təkzib etsə də, Abbasovları bu respublikaya bağlayan tellərin sırf bizneslə əlaqəli olduğu təkzibedilməz faktdır.

Sabiq vitse-primyerin Dağıstana Türkiyə investisiyasının yatırılması prosesinə hələ bir neçə il əvvəldən maraq göstərdiyi məlumdur. Hələ bir neçə il əvvəl də İstanbulda, daha sonra isə Mahaçqalada iri türk şirkətləri ilə aparılan danışıqlarda A.Abbasovun Dağıstanın o vaxtkı prezidenti Ramazan Abdulatipovun yanında yer alması həm Rusiya, həm Azərbaycan mediasının diqqətini çəkmişdi. Bildirilirdi ki, A.Abbasov danışıqlarda Türkiyə investorlarını Dağıstana tikinti, trikotaj sənayesi və qismən də olsa turizm sektoruna sərmayə yatırmağı planlaşdıran Türkiyə şirkətlərini razı salmağa çalışırmış. A.Abbasovun Dağıstanda tikinti, restoran və neft daşımaçılığı biznesi olması dəqiq məlumdur. O, indi axtarışda olan biznesmen "AST" Şirkətlər Qrupunun prezidenti Telman İsmayılovla birgə Mahaçqala limanının bir hissəsini almaq istəyirdi. Amma A.Abbasov bu planları gerçəkləşdirə bilmədi.

Abdulatipovun istefa verməsindən sonra A.Abbasovun Dağıstanda əvvəlki kimi ürəkli olmayacağı məlum idi. Prezident səlahiyyətlərini müvəqqəti icra edən Vladimir Vasilyev işə başlayandan əhalidə narazılıq doğuran bütün tikinti işlərinin dərhal dayandırıb, qanunsuz sənədləşmə və torpaq alverinin qarşısını alıb. Son həbslər də bir daha göstərir ki, Moskvadan dəstək alan Vasliyev bu kimi hallara qarşı barışmaz mövqeyini davam etdirəcək. Yeri gəlmişkən, Dağıstandakı mənbələr həbs dalğasının hazırda prezident Vladimir Putinin Xəzər regionu üzrə səlahiyyətli nümayəndəsi Ramazan Abdulatipovun qardaşı Rəcəbə də çata biləcəyini deyir.

Belə ki, onun da büdcə vəsaitlərinin mənimsənilməsində əli olduğu haqda məlumatlar var.

Qaynağımız biznesdə "ayıq" olan A.Abbasovun artıq bəzi obyektləri satışa çıxardığı, bəzilərinin isə qapılarına qıfıl vurulması barədə göstəriş verdiyini deyib. Azərbaycanda bəlli səbəblərdən biznesini tam itirən Abbasov indi Xəzərin o tayında da iflas həddinə gəlib.

**Siyasətdən getdiyini bəyan edən A.Abbasov, deyilənlərə görə, Türkiyədə övladlarının yanında yaşayır, amma Moskva ilə də təmasları səngitmir.**

❑ "YM"

# Mayadək ciddi kadr islahatları olmaya bilər

**2016-cı ilin sentyabrında Azərbaycanda keçirilən referendumdan ötən bu müddət ərzində ölkə iqtidarının müəyyən sahələrdə kadr dəyişikliklərinə getdiyini müşahidə etdik. Bunun nəticəsində yüksək rütbəli dövlət məmurları səviyyəsində bir sıra şəxslər vəzifələrini itirdilər və ekspertlər bu prosesin hələ bir müddət davam edəcəyini bildirirdilər.**





## Fəzail Ağamalı: "Seçkilərdən sonra istisna deyil ki, ölkə başçısı bir sıra sahələrdə kadr dəyişikliyini aparsın"

## Natiq Miri: "Həlledici mərhələlərdə belə kadr dəyişikliklərinə getmirlər"

Onların fikirləri daha çox kadr islahatlarının bu ilin yayına qədər davam edib, oktyabr ayında gözlənilən prezident seçkisinə iki ay qalmış bu islahatların səngiyə biləcəyi yöndə idi. Arqument kimi də heç bir ölkə iqtidarının seçki prosesində daxildən müəyyən dəyişikliklər etməməsi göstərilirdi. Ölkə başçısının aprelin 11-də Azərbaycanda prezident seçkisinin keçirilməsi barədə sərəncamı diqqətləri qarşıdakı iki aya yönəltdi. Hakimiyyətin kadr islahatlarını davam etdirib-etdirməyəcəyi suallar doğurur. Doğrudur, çoxları bu prosesin seçkilərdən sonra davam edəcəyini düşünür.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı kadr dəyişikliyini qarşıdakı aylarda gözləmir:** "Mənə elə gəlir ki, ciddi bir səbəb olmasa kadr dəyişikliyi prezident seçkilərinə qədər gözlənilən deyil. Çünki faktiki olaraq, bir neçə gündən sonra seçki kampaniyası start götürəcək. Aprelin 11-də keçiriləcək seçkilərdə əsas diqqət təşkilati məsələlərin hazırlanması, onun reallaşması və digər tərəfdən, ölkə başçısının bu seçkilərdə təbliğat kampaniyasında iştirakınadır. Bu iştirak hər zaman olduğu kimi, mənə elə gəlir ki, indi də dinamik, genişmiqyaslı xarakter daşıyacaq. Bu baxımdan prezident seçkilərinə qədər hər hansı bir kadr üçün qeyri-adi nəsə baş verməsə, belə bir addımın atılmasını gözləmirəm. Ölkə prezidenti, bildiyiniz kimi, kadr islahatlarına tamam başqa bir formatda yanaşır. Bu istiqamətdə onun fərqli bir yanaşması var. Tükənən, etimadı itirən, haqqında cəmiyyətdə mənfi fikirlər formalaşan insanlar vəzifədən uzaqlaşdırılır və onların yerinə fərqli keyfiyyətləri özündə əks etdirən insanlar gətirilir. Bu, 2003-cü ildən ölkə başçısının bəzi kadr islahatlarında özünü bariz şəkildə göstərməkdədir. Prezident seçkiləri bitdi, dərhal komandanın hamısını çıxaraq, yeni bir komanda gətirək kimi praktika ölkə prezidentinin kadr siyasətində yoxdur. Onu da etiraf edim ki, ayrı-ayrı epizodlar istisna olmaqla, bu cür yanaşma Azərbaycanda özünü doğruldur, komandanın yetkin, mütəşəkkil olmasına özünün töhfəsini verir. Biz bunu 2003-cü ildən bu günə qədər olan müddət ərzində daim görmüşük. Prezident seçkilərindən sonra yenə də istisna deyil ki, ölkə başçısı bir sıra sahələrdə kadr dəyişikliyini aparsın. Növbədənkənar seçkilərin keçirilməsi, hər halda, prezidentin iradəsini ifadə edən siyasi bir gedişdir. Tamamilə əminəm ki, bu iki ay ərzində qarşıdan gələn seçkilər uğurlu başa çatdırılacaq, azad, şəffaf və ədalətli seçkilərin keçirilməsi təmin olunacaq".

**Siyasi şərhçi Natiq Miri hesab edir ki, seçkilərə qədər ciddi kadr dəyişikliklərini gözləmək doğru deyil:** "Həlledici mərhələlərdə belə kadr dəyişikliklərinə getmirlər. Bu baxımdan seçkiöncəsi komandanın daha çox toparlanmasına üstünlük veriləcək. Çünki seçkinin önə çəkilməsinin özü fövqəl xüsusiyyətlər daşıyır. Bu baxımdan həmrəylik olmasa, seçkilərin önə çəkilməsinin də əhəmiyyəti qalmaz. Bu qərarın verilməsi müəyyən mənada müxalifəti də hazırlıqsız yaxaladı. Çünki gələcəkdə bəlkə də potensial müxalif birliklərin təşkili mümkün ola bilərdi. Lakin bunlar olmadı və bu da hakimiyyətə aprelin 11-də keçiriləcək seçkidə birmənalı qalib gəlmək üçün böyük üstünlüklər yaradacaq".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, hökumətin növbəti hədəfi Afrindən sonra Menbic bölgəsini PYD/YPG terror təşkilatından təmizləməkdir. Ankarada hakim partiya rəhbərliyi qarşısında çıxış edən prezident ABŞ hökumətinə mesaj göndərərək əməliyyatın davam edəcəyini bildirib.**

# Ərdoğan ABŞ-a meydan oxudu - "Menbicə girəcəyik..."

## Türkiyəni Suriyanın içərisinə çəkmək istəyirlər - iki məqsəd



**Ərdoğan bildirib ki, əməliyyat Afrindən sonra Menbicdə davam edəcək və o torpaqların terrordan təmizlənib əsl sahiblərinə verilməsi baş tutacaq. Sitat:** "Bunu Amerika görürmü? Cənab Obama da düzgün danışmadı, indi cənab Tramp eyni yolda gedir. Bizə "Menbicdən çıxacağıq" dedilər. O zaman nədən dayanmışsınız? Haydı, çıxın. Kimləri gətirdiniz oraya? PYD, YPG, PKK-nı. Biz Menbicə o torpaqların əsl sahiblərinə təslim edilməsi üçün gedəcəyik, bizim fərqimiz budur".

ABŞ-ı tənqid edən Türkiyə prezidenti Vaşinqtonun Türkiyədən Afrin əməliyyatını bitirməklə bağlı tarix istəməsinin əsassız olduğunu deyib. Ərdoğan deyib ki, Türkiyə sərhəd ölkə Suriyada terror təşkilatının yerləşməsinin qarşısını almağa çalışacaq.

Türkiyə lideri onu da deyib ki, ordu Afrində irəliləməkdə davam edir. 1000-dən çox YPG üzvünün məhv edildiyini qeyd edən Ərdoğan Afrin əməliyyatının qətiyyətlə davam etdiriləcəyini söyləyib. Bir gün əvvəl isə o bəyan edib ki, YPG hərbi geyimində olan amerikalılar vurulacaq. Türkiyə prezidenti ABŞ-dan əsgərlərini Afrindən geri çəkməyi tələb edib. Fevralın 6-da isə ABŞ əsgərləri Türkiyə-Suriya sərhədində Türkiyənin Akçakale sərhəd məntəqəsi qarşısındakı ərazidə görünüblər.

Rəsmi məlumatlara əsasən, hazırda Suriya ərazisində ABŞ-ın 1700 hərbçisi var. Ancaq bir neçə ay əvvəl İŞİD əleyhinə koalisiyanın amerikalı general nümayəndəsi Suriyada 5 min hərbçilərinin olduğunu bildirmiş, daha sonra bu sözünü təkzib edərək yanlışlıq adlandırmışdı. Amerikalılar Suriyanın əsasən şimalında, kürdlərin (SDQ) nəzarətindəki Qamışlı, Menbic, Hasake, Raqqa kimi bölgələrdə yerləşib. Ancaq bir hissəsi xüsusi təyinatlı döyüşçülərdən, bir qismi isə təlimatçılardan ibarət olan amerikalı hərbçilər kürdlər üçün ciddi dəstək deməkdir. Çünki amerikalılar kürdlərə silah və döyüş təlimi keçir, həm də onlara informasiya-kəşfiyyat dəstəyi verirlər. Ərdoğanın açıqlaması isə göstərir ki, Afrində də amerikalılar var və onlar YPG geyimi ilə hərəkət edirlər.

Digər tərəfdən, amerikalılar kürdlərə quru əməliyyatlarında ciddi üstünlük təmin edəcək silah və texnika veriblər. Bu da Türkiyə ordusuna indi olmasa da, gələcəkdə ciddi problemlər yarada bilər. Yeri gəlmişkən, son günlər Türkiyə ordusuna qarşı müqavimət güclənib. Bu, bir tərəfdən ordunun Afrin ərazisində içəriyə doğru irəliləməsi ilə əlaqədardırsa, digər yandan, planlı təxribata bənzəyir. Son 3 gündə Türkiyənin Afrində iki tankı vurulub, İdlibdə əl-Əis qəsəbəsinə gedən Türkiyə ordusu konvoyu atəşə tutulub. Türk konvoyuna hücum nəticəsində bir hərbçi ölüb, 5 nəfər isə yaralanıb. Hücum raket və minaatanlarla həyata keçirilib.

Məsələ ondadır ki, formal olaraq İdlib Türkiyənin atəşkəsə nəzarət etdiyi bölgə hesab olunur və oradakı qüvvələrin böyük bir qismi Türkiyə ordusuna qarşı müqavimət göstərmir. Ancaq artıq ikinci dəfədir ki, Türkiyə ordusu konvoyuna hücumlar baş verir. Türkiyə ordusunun İdlibdəki hərəkəti Astana razılaşması əsasında aparılır.

Belə görünür ki, Türkiyənin Afrində, eləcə də İdlibdə eyni zamanda fəallaşması narahatlıq doğurur. Bu cür təxribatlar iki məqsəd güdə bilər. Birincisi, Türkiyə ordusunun imicini zədələmək, onun əməliyyat qabiliyyətini və funksiyalarını zəiflətmək, ikincisi isə həm Afrində, həm də İdlibdə toqquşmaya çəkmək, savaş meydanını genişlətmək və sonunda Ankaranı böyük bir savaşa, ya da başqa adla "Suriya bataqlığına" çəkmək.

Hələlik Türkiyə ordu komandanlığı ehtiyatlı yanaşır, qarşıdurmaya və genişmiqyaslı əməliyyatlara girmək istəmir. Ehtimal ki, Tel Abyadda görünən-görüntülənən amerikalı əsgərlər də eyni məqsədə xidmət edir. Suriyanın şimalı indi çox mürəkkəb oyun taxtasına çevrilib. Bəşər Əsəd, amerikalılar, ruslar, iranlılar (Hizbullah), türklər, kürdlər və hər biri bir ölkə və ya bir neçə ölkəyə bağlı olan radikal silahlı qruplar. Sözün həqiqi mənasında "ərəb saçına" dönən bölgədə sağlam və qərarlı bir xətt yürütmək çox çətindir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **"Yeni Müsavat"**

# ABŞ və Asiya Fond birjalarının çöküşü-varlıların beli qırıldı

## Proses Azərbaycan Neft Fonduna da təsir göstərəcək




**ABŞ-ın fond birjalarında ötən həftədən start götürən narahatlıqlar bazar ertəsi günü kəskin enmələrə keçib. Belə ki, bazar ertəsi ABŞ fond indeksləri son 6 ildə rekord həddə - orta hesabla 4 faiz azalma nümayiş etdirib. "Yeni Müsavat" Bloomergə istinadən məlumat verir ki, Dow Jones indeksi 1175 bənd və yaz 4,6 faiz dəyər itirib. Bu, tarixdə ən böyük günlük azalma hesab olunur. S&P 500 indeksi son 20 ildə ilk dəfə bir gün ərzində 4,1 faiz dəyərsizləşib. Nasdaq isə 3,78 faiz eniş nümayiş etdirib.**

ABŞ birjalarındakı çökmə Asiya bazarlarına da təsir göstərib. Belə ki, Yaponiyanın Nikkei indeksi 6 faiz, Topix indeksi 5,43 faiz, Honkonq Fond Birjasının HangSeng indeksi isə 4,59 faiz dəyərsizləşib.

"Yeni Müsavat"ın CNBC telekanalına istinadən məlumatına görə, Ağ Evdən - Tramp administrasiyasından fond birjalarındakı çökmə ilə bağlı açıqlama verilib. Açıqlamada bildirilir ki, hökumət "həmişə fond bazarı kapital itirəndə narahat olur, lakin iqtisadiyyatın fundamental göstəricilərindən əmindir".

Ekspertlərə görə, fond birjaları ABŞ iqtisadiyyatında inflyasiyanın sürətlənməsi, həmçinin FED-in uçot dərəcələrini gözlənildiyindən daha sürətlə artırması kimi amillərin təzyiqi altındadır. Bu şəraitdə investorlar arasında yaranan çaşqınlıq birjalarda əksini tapır.

Bəzi mənbələrə görə, Amerika səhm bazarındakı vəziyyətin yaranmasında ABŞ-ın aparıcı banklarından biri olan Wells Fargonun ciddi tənəzzülü də böyük rol oynayır. Belə ki, həftənin ilk iş günü Nyu-York Fond Birjasında(NYSE) bu bankın səhmləri 7 faizdən çox dəyər itirib.

Qeyd edək ki, Wells Fargo 1,9 trilyon dollarlıq aktivləri ilə ABŞ bankları arasında böyüklüyünə görə 3-cü yeri tutur. Ötən həftə Federal Ehtiyat Sistemi(FED) banka aktivlərini artırmağı qadağan edib. Qurum bu qərarı bankın mövcud qaydaları və istehlakçı hüquqlarını genişmiqyaslı pozulması hallarına yol verməsi ilə izah edib. Ekspertlər hesab edirlər ki, səhmlərinin dəyərdən düşməsi ilə yanaşı, Wells Fargo yaxın gələcəkdə daha ciddi itkilərlə üzləşəcək.

Fond bazarlarındakı çökmə nəticəsində dünyanın ən varlı adamları bir günə 114 milyard dollar itiriblər. Bu zaman 18 milyarderin hər birinin itkisi 1 milyard dollardan yuxarı olub. Bloomberg Billionaires Index-in hesablamalarına görə, dünya varlıları arasında 3-cü yeri tutan Uorren Baffet 5,1 milyard dollar, Facebook-un yaradıcısı Mark Zukerberq 3,6 milyard dollar, planetin ən varlı adamı - "Amazon"un yaradıcısı Ceff Bezos 3,3 milyard dollar, Google axtarış sisteminin sahibləri olsn Larri Peyc və Sergey Brin hərəyə 2,3 milyard dollar itiriblər.

Google, Wells Fargo, Berkshire Hathaway, Apple, Microsoft və ExxonMobil hər biri 30 milyard dollardan çox zərərə düşüblər. CNBC-nin məlumatına görə, ABŞ şirkətləri ümumilikdə 1 trilyon dollardan yuxarı vəsait itiriblər.

ABŞ prezidenti Donald Tramp Dow Jones indeksinin rekord enmə xəbərini Ohayo ştatındakı zavodların birində olarkən alıb. Xəbərə rəğmən, o, çıxışında iqtisadiyyatın sürətli inkişafından, yeni iş yerlərinin açılmasından və stabillikdən bəhs edib.

Vitse-prezident Maykl Pens isə jurnalistləri əmin etməyə çalışıb ki, baş verənlər "bizim fond bazarımızın adi eniş-yoxuş" vəziyyətini əks etdirir. O bildirib ki, ABŞ indeksləri Tramp prezident olandan bəri minlərlə bənd yüksəlişə nail olublar.

**İqtisadçı-ekspert Samir Əliyev bildirir ki, uzun müddət ərzində ABŞ fond bazarında belə sürətli enmə müşahidə olunmayıb:** "Hazırda hamını belə bir sual maraqlandırır ki, bu, korreksiyadır, yoxsa yeni bir böhranın başlanğıcı? Düşünürəm ki, bu, daha çox korreksiya - yəni qiymətlərin bazara uyğunlaşmasıdır. Bir müddətdən sonra birjalarda vəziyyət normallaşacaq. Ötən həftənin əvvəlində FED-in əvvəlki rəhbəri Alan Greenspan bildirmişdi ki, ABŞ-ın fond və istiqraz bazarlarında köpük yetişir. O, səhmlərin qiymətinin düşməyə başlayacağı barədə xəbərdarlıq etmişdi. Bu vəziyyətin FED-lə bağlılığı var. Bağlılıq ondan ibarətdir ki, rəhbəri dəyişib. FED-in yeni rəhbəri Ceremi Pauell fəaliyyətə başlayır. Əvvəlki rəhbərlik bazara kifayət qədər likvidlik vermişdi. Avropa, Asiyada da beləydi - mərkəz banklar böhrandan sonra pul çap etmişdilər. FED-in yeni rəhbəri uçot dərəcəsinin daha kəskin artırılmasının tərəfdarıdır. Üstəlik, ABŞ pul çapını dayandırıb. Eyni zamanda dövriyyədəki pul kütləsinin azaldılması siyasəti yürüdülür. İqtisadiyyatın inkişafı ilə bağlı açıqlanan pozitiv rəsmi rəqəmlərə baxmayaraq, likvidliyin azalması gözləntiləri bazarda təlatüm yaradır. Digər tərəfdən, hazırda ABŞ qiymətli kağızlarının illik faiz dərəcəsi 2,85 faiz təşkil edir. Son 10 ildə bu dərəcələrdə davamlı artım qeydə alınıb. Bu artımlar da bazara təsir edən amillərdən biridir".

Onu da qeyd edək ki, ölkə prezidenti tərəfindən təsdiqlənən investisiya siyasətinə əsasən 2018-ci ildə Azərbaycan Respublikası Dövlət Fondunun investisiya portfelinin 25 faizi səhmlərə yatırıla bilər. 2017-ci ildə bu göstərici 15 faiz təşkil edib. Bu il üçün investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (ortaçəkili həcmi) 60,67 milyard manata bərabər götürülüb.

**ABŞ və Asiya fond bazarlarındakı vəziyyətin Azərbaycana təsirlərə gəlincə, S.Əliyevin fikrincə, fond birjalarındakı enmənin ARDNF-nin aktivlərinə təsir uzunmüddətli olmayacaq:** "Bazarlarda vəziyyət stabilləşən kimi itkilər də azalacaq. Hələlik ciddi bir itkidən söhbət açmaq mümkün deyil, çünki enmələr yeni baş verib və o qədər də böyük faizdən söhbət getmir".

❑ **Dünya SAKİT,**
❑ **"Yeni Müsavat"**

# "Boz Qurd"lardan növbədənkənar seçki açıqlaması

## Səfər Hümbətov: "Olası boykot qərarını düzgün hesab etmirəm"

**Azərbaycan Milliyyətçi Demokrat (Boz Qurd) Partiyasının qurultaya hazırlıq üzrə təşkilat komitəsinin sədri Səfər Hümbətov 11 aprelə təyin edilmiş növbədənkənar prezident seçkisi ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**



***- Növbədənkənar prezident seçkisi qərarına Milliyyətçi Demokrat Partiyasının münasibəti necədir? Partiyanız seçkidə iştirak edəcək?***

- Seçkinin önə çəkilməsi bizim üçün gözlənilməz oldu. Baxmayaraq ki, bəzi şəxslər xeyli vaxtdan bəri növbədənkənar seçki proqnozları verirdilər. Amma bu qədər tezliklə olacağını çox adam gözləmirdi. Növbədənkənar seçki bizim partiyanı digər müxalifət partiyaları kimi seytnot vəziyyətə, çıxılmaz duruma salmayıb. Çünki bizim partiya olaraq öz namizədimiz yoxdur. Namizədlər bəlli olandan sonra daha məqbul hesab etdiyimizə dəstək verməyi düşünürük. O təşkilatlar çıxılmaz durumla üz-üzə qalıblar ki, özlərinin namizədi var və seçki hazırlıqlarını qarşıdakı 7-8 aya planlaşdırmışdılar. İndi çox qısa zaman qaldığı üçün hazırlıq sarıdan çətin duruma düşüblər. Mən hesab edirəm ki, növbədənkənar seçki qərarı müəyyən siyasi təşkilatların seçki hazırlıqlarına mənfi təsir etsə də, dövlət olaraq Azərbaycanın xeyrinə ola bilər. Düşünmürəm ki, seçkinin önə çəkilməsi siyasi rəqibləri seytnot vəziyyətə salmaq üçündür. Məncə, hakimiyyətin daxili amillərlə bağlı ciddi problemi yoxdur. Hesab edirəm ki, seçkinin önə çəkilməsində daha çox xarici faktorlar rol oynayıb. Bir sıra xarici faktorlar var ki, onların Azərbaycana ziyan vura biləcəyi ehtimalları var. Onları önləmək və həmin ehtimalları minimuma endirmək gərəkdir.

***- Dediniz ki, öz namizədiniz olmasa da düşüncənizdə başqa bir namizədə dəstək vermək var idi. 11 apreldə keçiriləcək seçkidə konkret hansı namizədə dəstək verməyi nəzərinizdə tutmusunuz?***

- Seçki oktyabrda olsaydı da bizim mövqeyimiz belə idi. İndi vaxt aprelə çəkildisə, o demək deyil ki, mövqeyimiz dəyişib. Düşüncəmiz belədir, lakin hələ partiyanın konkret kimi müdafiə etmək barədə rəsmi qərarı yoxdur. Digər tərəfdən də namizədlərin kim olması rəsmən bəlli olmalıdır ki, biz də onlardan hansını müdafiə edə biləcəyimizi müəyyənləşdirək və rəsmi qərar qəbul edək. Növbədənkənar seçki qərarı verilməzdən öncə bir neçə nəfər namizədliyini elan etmişdi. Növbədənkənar seçki qərarından sonra yeni durum yarandığı görünür, həmin şəxslərin seçkidə iştirak edib-etməyəcəyi hələ sual altındadır.

***- Artıq Milli Şura seçkini boykot etmək anonsu verib. Milliyyətçi Demokrat Partiyası boykot qərarına necə yanaşır?***

- Keçmiş təcrübə göstərir ki, boykot variantının heç bir müsbət effekti olmur. Əksinə, boykotun zərərləri olur. Azərbaycan kimi ölkələrdə seçkilər müxalifət üçün xalqla təmas, sözünü demək, aktivləşmək üçün tribuna rolunu oynayır. Ona görə də siyasi partiyalar bu tribunadan istifadə etmək mövqeyində olmalıdır. Bu tribunadan imtina etmək işin xeyrinə deyil. Aktiv mübarizə aparılmalıdır. Boykot qərarını düzgün hesab etmirəm.

***- Partiyanızın ağsaqqalı İsgəndər Həmidovun seçki ilə bağlı hansı mövqeni ortaya qoyması, kimi müdafiə etməsi partiya olaraq verəcəyiniz qərarda əksini tapacaq?***

- Ümumiyyətlə, Milliyyətçi Demokrat Partiyasında qərarlar kollegial qaydada qəbul olunur. Yəni heç vaxt bir fərdin istəyi ilə qərar qəbul olunmur. Bizim partiyaya nədənsə həmişə radikal, bir nəfərin diktəsinin hakim olduğu partiya kimi baxıblar. Əslində isə belə deyil. Seçkidə kimə dəstək vermək məsələsində də kollegial şəkildə qərar qəbul olunacaq.

❑ Etİbar SEYİDAĞA,
❑ Musavat.com



## Bakıdakı nümayəndəsi Rəsul Quliyevlə yollarını ayırır

### Ağasif Şakiroğlu: "Konfliktdə iştirak etməyi doğru hesab etmirəm"

**Eks-spiker Rəsul Quliyevlə keçmiş deputat Hüseyn Abdullayev arasında son bir həftədə gərginlik yaşandı. Hüseyn Abdullayev hətta Rəsul Quliyevi ağır ifadələrlə təhqir də etdi. Diqqətçəkən məqamlardan biri isə bu oldu ki, eks-spikerin Azərbaycanda nümayəndəsi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu baş verənlərə seyrçi qalmağa üstünlük verdi. Bəs Ağasif Şakiroğlu nədən bu dəfə R.Quliyevi müdafiə etmədi?**

**Ağasif Şakiroğlu** "Yeni Müsavat"a bildirdi ki, demokratik qüvvələrin indiki dövrdə bir-birinə qarşı hücumlar etməsinin tərəfdarı deyil. Vəziyyəti gərginləşdirmək istəmir: "Biz hesab edirik ki, mövcud durumda bütün demokratik qüvvələr arasında olan soyuq münasibətlərə son qoyulmalıdır. Gələcək Azərbaycan Partiyası bütün bu konfliktlər qarşısında barışdırıcı mövqedə dayanır. Hesab edirik ki, mövcud durumda bu kimi məsələlərlə uğraşmaq doğru deyildir. Azərbaycanımızın gələcəyi üçün bu gün demokratik qüvvələrin birlikdə hərəkət etməli olduğu bir vaxtda bu tip fərdi münasibətlər zəminində yaranmış konfliktlərə zaman xərcləmək doğru deyil. Biz bu gündən bütün müxalif partiyalarla, ictimai-siyasi hərəkatlarla və ən əsası da prezidentliyə namizədliklərini elan etmiş şəxslərlə müxtəlif görüşlər keçirdəcəyik. Növbədənkənar prezident seçkisi öncəsi bu tip provokasyon, gündəm dəyişməyə gətirib çıxartmağa hesablanmış israrla cavab alınmağa çalışılan sualları cavabsız qoymağı daha doğru hesab edirik. Buradan da ümumən demokratik qüvvələrə səslənərək, demokratik qüvvələri milli birliyə səsləyirik".

**"Dediklərinizdən belə çıxır ki, Rəsul Quliyev başqa bir namizədlə söz atışmasına getməklə pozuculuq edir? Siz Rəsul Quliyevin namizədliyini müdafiə edəcəksiniz" suallarına isə A.Şakiroğlu belə cavab verdi:** "Mən 11 aprelə təyin edilmiş prezident seçkiləri ərəfəsində ölkə müxalifətinin birləşməli və vahid formada hərəkət etməli olduğu bir zamanda bu tip konfiliktdə iştirak etməyi öz payıma doğru hesab etmirəm və hesab edirəm ki, belə bir vəziyyətdə siyasi partiya sədrləri, siyasi liderlər daha məsuliyyətli addımlar atmalı və işlətdikləri ifadələrə nəzarət etməlidirlər. Yaranmış yeni siyasi konyuktura şəraitində hamı bir olmalı və birlikdə hərəkət edərək mövcud rejimə qarşı mübarizədə vahid cəbhədə səfərbər olmalıdır. Sualınızın ikinci hissəsinə gəldikdə isə diqqətinizə çatdırmaq istəyirəm ki, Rəsul müəllim fərdi qaydada namizədlik iddiasını ortaya qoymuşdu. Bu məsələ ilə bağlı Gələcək Azərbaycan Partiyasının rəsmi qərarı, rəsmi mövqeyi yox idi. Hazırkı növbədənkənar seçki ərəfəsində isə bildiyim qədər əksər müxalifət nümayəndələri və namizədlər seçkilərlə bağlı vahid mövqe ifadə etməyə hazırlaşır. Bizlər də Azərbaycanın gələcəyi naminə real, qətiyyətli addımların atılmasında maraqlıyıq və prinsipial xətdə dayanacağıq".

❑ Etİbar SEYİDAĞA,
❑ "Yenİ Müsavat"

# Prezidentliyə namizədlərə pul verilməməsinə etirazlar var

**Fevralın 5-də ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə aprelin 11- ə təyin edilən prezident seçkisi ətrafında gedən müzakirələr qızışır. Proseslərlə bağlı bir sıra müəmmalar var ki, onlardan biri namizədliyini verib qeydə alınan şəxslərə maliyyə vəsaitinin verilib-verilməyəcəyi, verilərsə, hansı miqdarda olacağı ilə bağlıdır.**

Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimov namizədlərə vəsaitlərin ayrılmadığını bildirdi: "Qeydə alınan namizədlərə maliyyə ayrılmır. Səhv etmirəmsə, 2010-cu ilin parlament seçkilərindən öncə Seçki Məcəlləsinə dəyişiklik edildi. Bu dəyişikliklərdən çıxış edərək, deyə bilərik ki, nə prezident, nə də parlament seçkilərində namizədlərə vəsait ödənilmir. Bu maliyyənin nə üçün ayrılmaması ilə bağlı aidiyyəti orqanlardan soruşmaq lazımdır. Bu, qanunla tənzimlənən bir məsələdir. Mərkəzi Seçki Komissiyası bu məsələlərə müdaxilə edə, münasibət belə bildirə bilməz".



**Fərəc Quliyev:**
"İki aydan sonrakı seçkilərə necə maliyyə əldə etsinlər?"



**Fazil Mustafa:**
"Maliyyə mütləq ayrılmalıdır"

**Son seçkilərdə prezidentliyə namizəd olan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev maliyyənin ayrılmamasından gileyləndi:** "Son seçkilərdə vəsait ayrılmadı. Sadəcə olaraq, təbliğat üçün bizə vaxt vermişdilər. Düşünürəm ki, seçki kampaniyasının maliyyələşdirilməsi üçün mütləq tədbir görülməlidir. İndi həm vaxt azdır, həm də partiyaların maliyyə imkanları çox aşağıdır. Büdcə baxımından partiyalar qəfil yaxalanıb. Məsələn, seçkilər 6 ay sonra olacaqdısa, dövlət tərəfindən maliyyələşdirilən parlament partiyaları maliyyə baxımından buna hazırlaşacaqdılarsa, indi bu imkanlar yoxdur. Partiyaların başqa işləri də var. Bu baxımdan iki aydan sonrakı seçkilərə necə maliyyə əldə etsinlər? Qənaətetmə imkanlarımız da tükənib. Ona görə də namizədlərin hökumət tərəfindən maliyyələşdirilməsi çox vacib bir məsələdir. Mən seçkinin vaxtını dəyişdirməyin əleyhinə deyiləm. Sadəcə, fikirlərimi maliyyə sıxıntıları baxımından deyirəm, lakin namizədlərin maliyyələşdirilməsini də vacib sayıram".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa da namizədlərə maliyyə vəsaitinin ayrılmasını vacib sayır:** "Düşünürəm ki, maliyyə mütləq ayrılmalıdır. Çünki müəyyən mənada Türkiyə və başqa ölkələrdəki kimi ən azı, minimum tələbat nəzərə alınmalıdır. Çünki seçkiyə qatılan şəxslərin yalnız ianə hesabına bunları etməsi doğru deyil. Seçki müəyyən mənada dövlətin həm də simasıdır, dövlətin seçkilərə nə qədər önəm verdiyinin göstəricisidir. Qanunvericilikdən bunun çıxarılmasının mənfi və müsbət tərəflərini müzakirə etmək doğru deyil. Amma ən azından ianələrin toplanma mexanizmi sadələşdirilməlidir ki, namizədlər seçki proseslərində daha sərbəst iştirak edib, fikirlərini ifadə edə bilsinlər, proqramlarını açıqlasınlar. Amma düşünürəm ki, seçkilərdə az namizədin iştirak etməsində bu başlıca səbəb deyil. Çünki seçki elədir ki, burada daha çox maliyyə imkanları olan yaxud cəmiyyət tərəfindən maddi cəhətdən dəstəklənən insanlar iştirak edirlər. Əgər tərəfdarın varsa- bunlar iş və başqa sahələrin adamları ola bilər-sənin seçilməyində onlar maraqlıdırlarsa, bu istiqamətdə dəstək verəcəklər".

❑ Cavanşİr ABBASLI,
❑ "Yenİ Müsavat"

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

# Alverçilər Arendanı bəyənməyəndə



Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanda turizmin inkişafı haqda reklamlara inanıb ölkəmizə gələn ərəbin başına Bakıda reklam lövhəsi düşübdür. Yazıq kəllə-beyin travması ilə xəstəxanaya aparılıbdır. Bizim reklam tarixi təcrübəmizdən çıxış eləsəm, onun bəxtinin gətirdiyini söyləyə bilərəm. Sovet hakimiyyəti vaxtı, ötən əsrin 70-ci illərində Gəncədə iki tələbə qız oxşar hadisədən həlak olmuşdular. Orada dövlət başçısı, bizim yapçıların qədim dostu Leonid İliç Brejnev yoldaşın məşhur afyorizmi - "Azərbaycan iri addımlarla irəliləyir" (rusca orijinalı "Şiroko şaqaet Azerbaydjan") nəhəng dəmir lövhəyə yazılıbmış. Küləkli hava lövhəni tələbələrin üstünə aşırtmışdı. Bələ bilmək olmur hardan gələcəkdir. Bu temada Viktor Tsoyun mahnısı da vardır: "Sabah təyyarə okeana düşəcək, Kimsə krandan yıxılacaq, Genc cərrahın əli titrəyəcək. Özünə fikir ver, ehtiyatlı ol".**

Ümumiyyətlə, həyat olduqca qəddardır. Təsəvvür edin, hər şeyin icarəyə verildiyi, bütün müqəddəs və qeyri-müqəddəs şeylərin alınıb-satıldığı, hər hansı dəyərin qalmadığı ərazidə uşağa Arenda adı qoya bilməzsən! Lənət olsun. Gəl indi burda yaşa. ASAN-xidmət və Nazirlər Kabineti böyründə terminologiya komissiyası buna mız qoyubdur. Hələ deyir Usub və Toybəy adlarını da qadağan ediblər. Ancaq Tuqay, Alpər, nə bilim, Alp Ər Tonqa olarmış. Guya uşağa militarist ad qoysaq qalxıb Qarabağı azad edəcəkmiş.

Vallah, bu cür ədalətsizlik olmaz. *(Şəkidə məhkəmənin divarında özüm oxumuşdum, heç yadımdan çıxmır: "Ədalətsizliklə ədaləti bərpa eləmək olmaz". Yarım saat sonra orda İlqar Məmmədova 7 il yamadılar getdi).* Niyə imkan vermirlər millət uşağına Arenda adı qoysun? Bunun nəyi pisdir? Gələcəyi üçün də yaxşıdır. Həm alverçilər ölkəsində yaşayacaq, ticarət markası kimi adı olar, həm də görün necə gözəl səslənir: "Filan şey hanı, a bala?» - «Bacım Arendaya vermişəm». Yaxud "Arendadadır", "Arendada qalıb" və sairə. Hansı şəkildə hallandırsan diləyatımlıdır, ürəkaçandır, könüloxşayandır. Özü də arenda kök baxımından təmiz türkcədir. Bizdə Arran adlı qədim dövlət olub. Arenda - yəni, Arranda yaşayan adam deməkdir.

Dövlət idarələri bunu bəlkə paxıllıqdan əngəlləyiblər. Ola bilsin saxlayırlar öz uşaqlarına qoysunlar. Yoxsa kim əsaslandıra bilər ki, Artur adı Arenda adından yaxşıdır? Valideynin, ümumiyyətlə, uşağa ad qoymasına, tərbiyə vermısinə, yol göstərməsinə qarışmaq olmaz. Biz Dədə Qorqud dövründə yaşamırıq, uşaq yekəlsin, at leşi satsın, biz də buna Ətmurad adı qoyaq, yainki, Qəssabxandan -zaddan bir şey. Biz uşaqların gələcəyini özümüz indidən müəyyən edirik. Güclü dövlətdə yaşayırıq biz, uşaq-muşaq işi deyil bunlar. Hər şey dəqiq bilinməlidir, dövlət proqramı üzrə olmalıdır.

Misal üçün, bu dəqiqə Mətbuat Şurası istəyir nəsə yenilik eləsin, mətbuat qanunları təzələnsin, idarənin statusu dəyişsin və sairə. Doğrusu, hökumət özü də başa düşmür hələ Əflatun müəllimin təzə arzusu özündə nəyi ehtiva etməkdədir. Çünki evlərin açarları təzə paylanıb qurtarıbmı? Qurtarıb. Hətta evin qabağında avtobus dayanacağı və zolaqlı keçid də çəkiblər. Evin üstündə vertolyot ploşadkası, altında metro stansiyası, qabağında dəniz, dalında dağlar - hər bir şey tikilib istifadəyə verilmişdir. Jurnalistlərin anadan olmağından sünnət toylarına, evlənməklərindən xınayaxdı mərasimlərinə, yazmaqdan çəkməyə, silməkdən pozmağa, baxmaqdan görməyə, eşitməkdən inildəməyə, quruldamaqdan cırıldamağa - uzun sözün qısası, bütün həyat şəraiti dövlət təminatı (o qədim tamaşada deyilən kimi, DÖT) altındadır. Belə olan şəraitdə MŞ sədrinin istədiyi təzə səlahiyyətlər nədən ibarətdir? Bəlkə o vergilər naziri olmaq fikrindədir? Bəlkə Təhsil Nazirliyinin Mətbuat Şurasına, sonra bu ikisinin də Müdafiə Nazirliyinə birləşdirilməsi və mətbuat kapitanları arasında mətbuat generalissimusu rütbəsi almaq fikrindədir? Bəlkə o, bizi qurrrrbağaya çevirmək istəyir?

Sonda idarədən tələb edirik heç olmasa Toybəy adına icazə versinlər. Xalqımızın toy kimi adəti var. Kül başınıza.

---

**İşğalçı Ermənistan blokada rejimini yumşaltmaq üçün inadlı səylərini davam etdirir. Lakin bu qəbildən cəbaları reallaşdırmaq indi elə də asan məsələ deyil. Siyasi, geosiyasi faktorlar var ki, onlar vazkeçilməz görünür.**




# Ermənistanın dəhliz arzusu dəfn edilir - Tiflisdən bəd xəbər

## Növbəti Rusiya-Gürcüstan danışıqları da nəticəsiz bitdi; **politoloq:** "Tiflis və Moskva bu məsələdə uzun müddət konsensusa gələ bilməyəcək, çünki..."

Biri elə Tiflisin Bakı və Ankara ilə ilbəil dərinləşən əlaqələri. Bu əlaqələr artıq iqtisadi-ticari, energetik-kommunikasiya sferalarını deyil, strateji əhəmiyyətli hərbi və təhlükəsizlik sahələrini də özündə ehtiva edir. Son illər üç ölkə arasında artıq dayanıqlı bir format yaranıb ki, rəsmi Tiflis bunu görməzlikdən gələ bilməz - hətta Ermənistana dəhlizlərin açılması ona əlavə iqtisadi dividentlər gətirsə belə.

Xatırladaq ki, söhbət Abxaziyadan keçən və 20 ildən çoxdur fəaliyyətsiz qalan dəmiryolunun işə salınması ilə yanaşı, Ermənistana alternativ avtomobil yolunun açılmasından gedir. Məsələ son olaraq, Çexiyanın paytaxtı Praqada Rusiya və Gürcüstan rəsmi nümayəndələri arasında görüşdə diqqət mərkəzində olub. Lakin növbəti görüş də nəticəsiz yekunlaşıb.

*****

"Yeni Müsavat"ın məlumatına görə, fevralın 5-də Zurab Abaşidze baş nazir Georgi Kvirikaşviliyə Praqada tərəflər arasında *(Rusiya XİN başçısının müavini Georgi Karasin)* keçirilmiş son nəticəsiz görüş haqda məruzə edib. Praqa görüşündə əsas mövzu isə Cənubi Qafqazdan Rusiyaya və oradan alternativ istiqamətdə - İrəvan-Tiflis-Qori-Tsixinvali-Vladikavkaz yolunun müzakirəsi olub.

Bəllidir ki, bu mövzu illərdir məhz Ermənistanın təkidi ilə müzakirə edilir. Çünki hazırda istismarda olan və işğalçı ölkəni Rusiya ilə birləşdirən, "Şimali Lars" gömrük postundan keçən yeganə yol - tarixi Hərbi Gürcüstan Yolu tez-tez sel-yağış səbəbindən yararsız hala düşür. Bu üzdən yolda vaxtaşırı Gürcüstan və Ermənistandan olan yüzlərlə böyük həcmli yük avtomobilləri ilişib qalır. Daha təhlükəsiz, stabil və rahat marşrut isə Cənubi Osetiyadan keçən Transqafqaz avtomagistralı hesab olunur. Lakin onun Ermənistanın xeyrinə işə düşməsi üçün Tiflis və Moskvanın razılığı lazımdır.

Məsələ ondadır ki, belə bir anlaşma üçün əsas artıq mövcuddur: 2011-ci ildə Rusiyanın Ümumdünya Ticarət Təşkilatın üzvlüyü ilə bağlı Moskva ilə Tiflis arasında "Yüklərin gömrük monitorinqi" haqda ikitərəfli müqavilə imzalanıb. Lakin Praqada Abaşidze-Karasin danışıqlarının axırıncı raundu göstərdi ki, tərəflər yekun anlaşmanın mühüm detalları barədə heç cür anlaşa bilmirlər.

Söhbət həm də ondan gedir ki, Rusiyanın müstəqil dövlət kimi tanıdığı Cənubi Osetiya ilə Gürcüstan arasında gömrük postunun qoyulub-qoyulmayacağından gedir. Rusiya tərəfinə görə, Moskva Abxaziya və Cənubi Osetiyanı suveren qurum kimi tanıdığından, belə postlar olmalıdır. Gürcü tərəfi isə bunu qəbul eləmir, çünki o halda Tiflis bu iki separatçı rejimin müstəqilliyini tanımış olacaq.

Öz növbəsində Zurab Abaşidze böyük lobbist qrupların təzyiqlərinə rəğmən, məsələdə Gürcüstanın kompromisə gedəcəyini şübhə altına ləb. O, yekun rəyin baş nazirlə görüşdən sonra bəlli olacağını söyləyib. Lakin diplomatın G.Kvirikaşvili 5 fevral görüşünün də nəticəsiz bitdiyi haqda informasiya gəlib.

*****

İrəvanda isə hər şeyə rəğmən, hələ də bu yöndə nikbin bəyanatlar verilməkdədir. Məsələn, xarici işlər naziri Edvard Nalbəndyanın axırıncı açıqlamasından belə qənaət hasil olur ki, Ermənistan nəinki Transqafqaz avtomobil yolunun, həm də Abxaziyada keçən dəmir yolunun açılmasını gözləyir. Hərçənd son hadisələr göstərir ki, belə ümidlər əbəsdir, nədən ki, məsələ öz kardinal həllini tapmayıb. Siyasi müşahidəçilərə görə, bundan ötrü bütün maraqlı regional oyunçular arasında bir neçə danışıqlar raundu keçirilməlidir.

Maraqlıdır ki, bu arada belə danışıqları daha mənasız edən, demək, Ermənistanın ümidlərini bir az da boşa çıxaran xəbər gəlib. "Yeni Müsavat"ın xəbərinə görə, dünən Rusiya prezidenti Cənubi Osetiyadakı separatçı hərbi birləşmələrin Rusiya ordusu tərkibinə daxil edilməsi haqda qanunu imzalayıb. Bundan sonra separatçılar Rusiya silahlı qüvvələrində hərbi xidmət keçəcəklər ki, bu da sövq-təbii Tiflislə Moskva arasında onsuz da kövrək olan etimad atmosferini daha da zədələyəcək.

*****

Ermənistan isə nəyin bahasına olur-olsun, Azərbaycan torpaqlarının işğalına görə üzləşdiyi və ildən-ilə daha da ağırlaşana nəqliyyat-kommunikasiya blokadasını yarmağa çalışır. Yeganə yol, əlbəttə ki, Gürcüstandan alternativ avtomobil və dəmir yolu marşrutunun açılmasına nail olmaqdır, ki, bu ümidlər də, vurğulandığı kimi, Tiflis-Moskva ziddiyyətləri və geosiyasi amillər üzündən daşa dirənib.

**"Tiflis əslində həmin marşrutların açılmasında maraqlıdır, ancaq gəl ki, hər şey onun səlahiyyətində də deyil". "Yeni Müsavat"ın məlumatına görə, bunu politoloq Tofiq Abbasov deyib:** "Gürcü tərəfi ilə söhbətdə ötən ilin dekabrında erməni prezident Serj Sərkisyan qarşı tərəfdən verbal dəstək almışdı. Lakin sadə olmayan geosiyasi reallıqlar fonunda nəqliyyat dəhlizlərinin aktivləşməsi məsələsi iqtisadi qayğıların çərçivəsini aşır. Bunu kim bilməsə də, erməni isteblişmenti xırdalığına kimi bilir. Rusiya və Gürcüstan belə görünür ki, tezliklə konsensus tapa bilməyəcək".

"Moskva üçtərəfli *(Gürcüstan-Rusiya-İsveçrə - red.)* sazişini implementasiya eləməyə açıq aşkar tələsmir. Heç kim də onu tələsməyə vadar edə bilməz. Ancaq problem təkcə bunda da deyil. Həm də ondadır ki, İrəvan bir yandan özünün qərbyönlü niyyətlərində "rezini" öz tərəfinə əyməklə öncədən öz əsas müttəfiqinin səbrindən sui-istifadə edir. Erməni isteblişmentində anti-Rusiya ovqatı artıq Moskva üçün hədələyici miqyas alıb. Beləcə, Qərblə oynayan İrəvan Rusiyaya təsir göstərmək məsələsində öz imkanlarını şişirtməkdədir. İkinci qəliz motiv isə odur ki, özünün sədaqətli və dürüst qonşu olduğu haqda bəyanatlar verən Ermənistan bir əli ilə Tiflisin başını sığallayırsa, o biri əli ilə altdan-altdan ermənilər yaşayan gürcü bölgəsi Cavaxetiyanı Tiflis əleyhinə qızışdırır", - deyə sonda politoloq əlavə edib.

**Bunun bir adı da nankor ermənilərin oturduqları budağı kəsməsidir. Necə deyərlər, düşən nə edir, özünə edir. Hər halda, günün gerçəyi budur ki, Ermənistanın dəhliz arzusu dəfn edilir...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

# ABŞ-dakı müəyyən mərkəzlərin seçkidə öz namizədi ola bilər-iddia

## **Politoloq:** "Hazırkı dövrdə Amerikanın Azərbaycana təsir imkanları tükənib"

**"Azərbaycan prezidenti İlham Əliyevinin seçkini erkən tarixə təyin etməsinin arxasında daxili və xarici siyasətlə bağlı kifayət qədər səbəb var".**

**Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bunu Azərbaycanda növbədənkənar prezident seçkisinin keçirilməsini "Yeni Müsavat"a şərh edərkən deyib. Ekspertin fikrincə, birinci səbəb odur ki, prezident siyasi və iqtisadi sabitliyin davamını istəyir və ilin sonuna seçki kampaniyası ilə deyil, uğurlu statistik nəticələrlə daxil olmağa çalışır: "İkinci səbəb Azərbaycanda may ayında Cümhuriyyətin qurulușunun 100 illik tədbirləri ilə əlaqəlidir. Prezident bu tədbirləri may ayında daha güvənilir şəkildə keçirmək istəyir. İl ərzində başqa tədbirlər də var ki, onlara da hazırlaşmaq gərəkdir. İlin başlanğıcında seçkini keçirmənin əhəmiyyəti odur ki, ilin ortasında və sonuna yaxın planlaşdırdığın tədbirlərə lazımi vaxt və diqqət ayıra bilirsən". **E.Şahinoğlu hesab edir ki, prezident komandası seçkini oktyabrdan aprelə salmaqla bu məntiqi də əsas tutub:** "Üstəgəl, mayın 28-də böyük amnistiya nəzərdə tutulub. Həmin amnistiya siyasi məhbus kimi qiymətləndirilən bir çox şəxslərə şamil edilə bilər. Məsələn, prezident seçkisinin aprel ayında təyin edilməsi Respublikaçı Alternativ Hərəkatının lideri İlqar Məmmədovun may ayında azad olunması ehtimalını artırır. Əks halda, İlqar Məmmədov mayda əfvdən sonra oktyabr ayında prezident seçkisində iştiraka hazırlaşacaqdı. Belədə isə o, prezident seçkisində iştirak etməyəcək. Açıq demək lazımdır ki, İlqar Məmmədov həbsdə yatdığı müddətdə müəyyən qədər tanınıb və seçkidən əvvəl azadlığa çıxıb namizədliyini irəli sürsəydi, müxalifətin ən ciddi namizədinə çevriləcəkdi. İndi isə bu mümkün olmayacaq".

**Politoloq qeyd etdi ki, bəziləri seçkinin irəli çəkilməsini Qarabağ münaqişəsinin həlli ilə əlaqələndirir:** "Yəni Ermənistanda və Azərbaycanda prezident və parlament seçkiləri mart və aprel ayında yekunlaşacaq və hər iki tərəf onlara beynəlxalq vasitəçilər tərəfindən edilən təklifləri seçkinin gələcək nəticələrini düşünmədən arxayın şəkildə müsbət dəyərləndirməyə hazır olacaqlar. Doğrusu, mən bu versiyanı bölüşmürəm. Birincisi, danışıqlarda irəliləyişin əlaməti yoxdur ki, prezidentlər il boyu hansısa ciddi sənədi imzalamağa hazır olsunlar. İkincisi, həmsədr dövlətləri Ermənistan hakimiyyətinə təsir edib münaqişənin həllini sürətləndirməyə marağı yoxdur. Seçki apreldə və ya oktyabrda oldu, bu münaqişənin həlli baxımından nəyə təsir edə bilər ki? Onsuz da ortada razılaşmanın əlaməti yoxdur. Cəbhə bölgəsində işğalçıya təzyiqi artırmağa isə bizə prezident seçkisi mane olmur. Əgər yay aylarında hərbi toqquşma ehtimalı artacaqsa, bunun prezident seçkisinin apreldə və oktyabrda keçirilməsi ilə bağlılığı yoxdur. Guya toqquşma avqust və ya sentyabrda olsa prezident ümumi səfərbərlik elan prezident seçkisini təxirə sala bilməz ki? Yəni seçkinin təxirə salınmasının Qarabağla əlaqəsinin olduğunu düşünmürəm".

**E.Şahinoğlunun fikrincə, əsas səbəb Rusiya amili ilə bağlıdır:** "Azərbaycanda bu və ya digər dərəcədə marağı olan dövlətlər bəllidir. Bu, Rusiya, ABŞ, İran və Türkiyədir. Bunlardan ancaq birincisinin Azərbaycandakı proseslərə təsir imkanları var. ABŞ-ın təsir imkanları haqqında 10-15 il bundan əvvəl danışa bilərdik. Ancaq hazırkı dövrdə Amerikanın Azərbaycana təsir imkanları faktiki tükənib. Amerikanın Azərbaycandakı bütün qrant ayıran fondları və təşkilatları qapanıb. Digər tərəfdən, Amerikanın beynəlxalq aləmdəki səhvləri, Türkiyədə kürd terrorçulara verdiyi dəstək və digər amillər Azərbaycandakı amerikapərəstlərin sayını da azaldıb. Əlbəttə, Amerikadakı müəyyən mərkəzlər hansısa namizədi gizli və ya aşkar dəstəkləyə bilərlər, ancaq bu dəstək quru sözdən ibarət olacaq. Rusiyanın isə quru sözdən başqa daha ciddi alətləri var və bunu biz 2013-cü il prezident seçkisində müşahidə etdik. Amerikadan fərqli olaraq Rusiyanın Azərbaycanda güclü dəstək qrupu var ki, biz onları "beşinci kolon" adlandırırıq. 2013-cü ildə Rusiyadakı mərkəzlər Azərbaycandakı prezident seçkisinə müdaxilə planı hazırlayaraq Rusiyadakı azərbaycanlı oliqarxları siyasi fəaliyyətə cəlb etdi. Bu oliqarxlar heç zaman siyasətə maraq göstərməyiblər və qəfil hamısı birləşərək təşkilat yaratdılar. Aydın idi ki, Rusiyanın lap üst dairələrindən sifariş almasaydılar, bizneslə məşğul olanlar, bəlkə bir-birilərinin üzlərini illərlə görməyənlər təşkilat yaradıb Rüstəm İbrahimbəyovun Azərbaycan prezidentliyinə namizədliyini açıq və ya gizli dəstəkləməzdilər". **Ekspertə görə, seçki oktyabr ayında keçirilsəydi, müxtəlif namizədlər irəli sürülə biləcəkdi, bloklar yaranacaqdı və ən azından 7 ay siyasi atmosfer gərginləşəcəkdi. Onun fikrincə, görünür, hakimiyyət bu cür gərginlikdə maraqlı deyil. E.Şahinoğlu bir məqamı da xatırlatdı:** "Doğrudur, Azərbaycanda prezident seçkisinə ay yarım qalmış Rusiya prezidenti Vladimir Putin Bakıya gəldi və Azərbaycan hakimiyyətinə təzyiq siyasətinə ara verdi. Ancaq bu siyasətə ara verilib, tam imtina edilməyib. Bunu Azərbaycanın hakimiyyət dəhlizlərində yaxşı anlayırlar". **Ekspert bildirdi ki, Rusiya və Ermənistanda prezident seçkisi mart ayındadır:** "Azərbaycanda seçki oktyabr ayında keçirilsəydi, Rusiyadakı mərkəzlərin yenə də Azərbaycandakı seçkiyə müdaxilə planları ola bilərdi. Apreldə isə müdaxilə imkanları minimumdur. Çünki Rusiyadakı seçki ilə Azərbaycandakı seçki arasındakı zaman fərqi çox az olacaq, müdaxilə üçün vaxtları çatmayacaq. Azərbaycan prezidenti aprel ayında mövqelərin möhkəmləndirdikdən sonra hakimiyyətdə kök salmış rusiyapərəstləri tədricən uzaqlaşdırmalıdır. Mənə elə gəlir ki, bu məsələdə onun ən böyük dəstəkçisi Mehriban Əliyeva olacaq. Köhnələri əvəzləyəcək yeni fiqurlar Mehriban Əliyevanın və onun komandasının hazırlayacağı kadr bankından gələcək".



**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

---

# Məzlum cəmiyyətdən dürüstlük umacağı



**Xalid KAZIMLI**

**Ötən il fevralın 5-də sosial şəbəkədə bir status yazıbmışam, srağagün önümə çıxdı. Status adi yol qəzası haqdadır. Qeydlər təxminən belədir ki, 114 saylı marşrutda işləyən avtobusun sürücüsü salonunda 60-dan artıq adam olan avtobusu beynəlxalq avtovağzalın yanında sürətlə sürüb, təhlükəli manevrlər edib, iki maşını əzib, birini də əzməmək üçün qaçırdıb, nəticədə sərnişin dolu avtobus iki təkərinin üstünə qalxıb, az qala aşacaqmış, birtəhər yola düzəlib.**

Ən ümdəsi odur ki, avtobusun salonunda olan qadınlar qorxub, qışqırıblar, sürücünün qarasına söyüb-söyləniblər, amma 30-dan artıq kişinin birindən səs çıxmayıb. Onlar qəza zamanı qorxsalar da, sürücüyə irad, etiraz bildirməyiblər, susublar, davaya düşməkdən qorxublar.

Statusun sonunda qeyd etmişəm ki, bu qədər fağır, mağmın adamlar onları ölümə aparan adi bir sürücüyə irad bildirməyə qorxurlarsa, onlardan öz talelərinə sahib çıxmağı gözləmək olarmı?

Gerçəkdən də heç olmasa öz haqqı tapdananda etiraz etməyi bacarmayan yüz minlərlə fağır adam var. Bu insanlar toplaşıb birlikdə cəmiyyət əmələ gətirirlər və bu cəmiyyət məzlum fərdlərdən ibarət olduğu üçün məzlum olur.

Ölkədəki mövcud duruma görə vaxtaşırı xalqı qınayan, bütün neqativliklərin günahını camaatın passivliyində, dişsizliyində, cəsarətsizliyində görən adamların dediklərinə oxşasa da, nə yazıq ki, belədir.

İfşa olunub vəzifədən götürülən, həbs edilən yüksək mənsəbli məmurların qalmaqallı məhkəmələri də göstərdi ki, bu adamların nə dövlət rəhbərliyindən, nə də xalqdan heç bir qorxusu olmayıb. Heç kəs onların bəd əməllərindən şikayət etməyib. Bu məmurlar onları daima əziblər, zəhmətlə topladıqları əmanətlərini yüz bir fırıldaqla əllərindən alıblar, borc-xərclə tikdikləri kiçik obyekti başlarına uçurub, yerində özlərinə saray, villa tikdiriblər, tutub aparıb zindana salıb nəslini soyublar, amma onlar susublar, qorxublar, başlarına gələni nə ictimailəşdiriblər, nə də bir yerə şikayət ediblər.

Əlbəttə, bu zülmləri edənlər elə adamlar idi ki, şikayətin o qədər də effekti olmayacaqdı, şikayət ərizəsini qaytarıb zalımların özlərinə göndərəcəkdilər. Amma başqa yollar da vardı axı. İctimai diqqət çəkmək, problemi ən yüksək instansiyalara bildirmək üçün müxtəlif etiraz üsulları var. Onlar heç nə etməyiblər, təslim olublar, xəraclarını veriblər, düşdükləri ziyanla barışıblar.

Hətta daha pis bir variant məhkəmədə oldu. Zalım məmurların əməllərindən külli miqdarda ziyan çəkən adamlar çoxsaylı məhkəmə proseslərinin finalında adətən belə bir ifadə verirdilər: "Mənə dəyən ziyan tam ödənilib, müttəhimlərdən şikayətim yoxdur".

Necə ola bilər? Onlar ifşa olunmasaydılar, sizin var-dövlətinizin üstünə qonacaq, onları istədikləri kimi mənimsəyəcəkdilər, sizə yaşatdıqları iztirabı sürdürə-sürdürə gedəcəkdilər. İndi özləri içəridədir deyə onlara nədən yazığınız gəlir və verdiyiniz ifadələr az qala onların bəraət qazanmasına səbəb olacaq.

Bu cür məsələlərdə güzəştli mövqe tutmaq, prinsipial olmamaq üzündəndir ki, ölkədə neqativ hallar, yaramazlıqlar, əliəyriliklər tüğyan edir.

Biz ümumilikdə götürsək dürüst cəmiyyət deyilik. Əliəyriliklərə asanlıqla haqq qazandıra bilirik. Prinsipial olaraq haqq-ədalət davası aparanların cərgəsinə, səfinə baxın. Necə də azdırlar. Necə də köməksiz, çarəsizdirlər.

Bir də güclünün tərəfində olmağa, ona yarınmağa çalışanlara baxın. Bütöv bir ordudur.

Güclülərə yarınanlar, qulluq göstərənlər isə heç də səmimi deyillər. Vəziyyət dəyişsə, onlar da dəyişəcək, zəifləmiş komandadan asanlıqla üz döndərəcək, güclü olanın tərəfinə keçəcək, ona yarınmağa, kalori və komfort əldə etmək üçün yeni komandadan istifadə etməyə çalışacaq.

Biz belə cəmiyyətlə azad, şəffaf, dürüst seçki keçirmək istəyirik. Mümkün deyil. Hətta yuxarılardan heç bir təzyiq, göstəriş, manipulyasiya olmasa belə, bu cəmiyyət bu halıyla dürüst seçki keçirə, onun nəticələrini sakit şəkildə qəbul edə bilməz.

İndilikdə belədir, gələcəkdə necə olacağına dair proqnozlar isə heç optimist deyil.

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

# İlqar Məmmədovun həbsinin beş ili-həyat yoldaşı danışır

## Vəfa Məmmədova: "Tanımadığım insanlar məni saxlayıb, İlqarı soruşurlar"

**REAL sədri İlqar Məmmədovun fevralın 4-də həbsinin beş ili tamam oldu. Barəsində azadlığa buraxılması ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinin və digər beynəlxalq qurumların saysız-hesabsız qərarları olan vicdan məhbusu hələ də məhbəs həyatı yaşayır. Onun mart, yaxud ən gec halda may ayına qədər azadlığa buraxılacağı gözlənilir.**

Həbsinin beş ilində **REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova** ilə söhbət etdik. O, İ.Məmmədovla fevralın 3-də həbsxanada görüşdüyünü söylədi: "Əhvalı yaxşıdır. Hər şey də qaydasındadır. İlqarın həbsinin ayın 4-də beş ili tamam oldu. Bu beş ildə nələrin dəyişdiyini deyə bilmərəm. Onu deyə bilərəm ki, İlqar üçün dəyişən heç nə yoxdur. O, çox prinsipal insandır. Öz prinsipləri uğrunda sona qədər mübarizə aparmaq gücündədir. Onun neçə il həbsdə qalmasının heç bir fərqi yoxdur. İstənilən halda beş ili həbsdə keçirmək, ailədən, yaxınlarından uzaqda qalmaq çox çətindir. Bu beş il ailə üçün də çox çətin keçib. Son görüşümüzdə beş il həbsdə qalması ilə bağlı elə bir söz demədi. Əslində həbsdə saxlanılmasının səbəbini yaxşı bilir. Amma açığı, ondan bu qədər çəkinib, onu bu qədər həbsdə saxladıqlarını təsəvvür edə bilməzdi".

**V.Məmmədova həyat yoldaşının azadlığa çıxması üçün yaxın aylara çox ümid etdiklərini də dilə gətirdi:** "Ümidimiz yaxın aylara olduqca çoxdur. Amma şər deməsən xeyir gəlməz. Bilmək olmaz, uzana da bilər. Lakin çox uzanacağını gözləmirik. Çünki artıq Avropa Məhkəməsinin qərarları var. İstər-istəməz o qərarı yerinə yetirməlidirlər. Bu proseslər artıq son həddədir. Bunlar yekunlaşandan sonra onsuz da İlqarı azad etmək məcburiyyətindədirlər. Keçən beş il bizə həm yaxın, həm də uzaq gəlir. Nədənsə zaman çox tez keçir. Amma digər tərəfdən də bu zaman bizə çox uzaq gəlir. Çünki biz ailə başçısıyıq və uzun illərdir uşaq atasız böyüyür, hər halda, həm uşaq, həm də mən çox əziyyət çəkirik. İlqarsız bizim üçün çox çətindir. Bizi bu illər ərzində daha çox ayaqda saxlayan amil İlqarın özünü mübarizliyi, dözümlülüyü, səbirliliyi oldu. O, orada möhkəm dayanıbsa, mənim də bu tərəfdə özümü zəif göstərməyim heç cür doğru olmaz, uyğun da gəlməz. Hər zaman mən yoldaşımın arxasındayam. Bilirəm ki, o, necə bir prinsipal insandır. Bütün dostlar, tanışlar sağ olsunlar, keçən bu illər ərzində daim yanımızda oldular, bizimlə hər zaman həmrəy oldular. Bizi heç vaxt tək qoymadılar, nə məni, nə ailəmizi, nə İlqarı. Düzdür, yanına gedib-gələ bilmirlər, amma hər halda, onların mənəvi dəstəyi böyük bir şeydir, həm bizim, həm də İlqar üçün".

**Vicdan məhbusunun həyat yoldaşı bəzi mətbuat orqanlarının və ictimaiyyətin də dəstəyindən razılığını ifadə etdi:** "İlqar Məmmədovun tək qaldığını heç zaman hiss etmədim. Çünki istər beynəlxalq qurumlar, istərsə də Avropa Şurası Nazirlər Kabineti və Avropa Məhkəməsi olsun, hər zaman İlqar üçün əllərindən gələni etdilər. Özünüz də gördüyünüz kimi, ilk dəfə olaraq, hansısa ölkə Avropa Məhkəməsinə verilir, məhkəmənin qərarının yerinə yetirilməməsi ilə bağlı. Bu çox böyük bir şeydir. Hər adam üçün də edilmir. İlqar üçün hər kəs əlindən nə gəlibsə onu da edib, istər Azərbaycan daxilində, istərsə də ölkədən kənarda. Mətbuat nümayəndələri də sağ olsunlar. Daim İlqarla bağlı bütün problemləri, müsbət şeyləri işıqlandırdılar, bizimlə daim əlaqədə oldular. Onu da deməyi lazım bilirəm ki, doğrudur, mətbuatda hər zaman İlqarı dəstəkləyən, yaxud onun tərəfini saxlayan yazılar çox olub, amma təəssüflər olsun ki, bununla bərabər İlqar haqqında yanlış, yaxud hansısa insanların aldatmaq üçün yazıları dərc olunub, fikirlər səsləndirilib. Bu da onu göstərir ki, İlqarın dostları çox olduğu qədər, düşmənləri də var. İctimai dəstəyi də daim hiss etdik. Böyük qisim gənclər İlqara hörmət edir, onu sevir. Burada gənclər tək deyil, başqa qisim şəxslər də var ki, İlqara daim dəstək verirlər. Bunu daim hiss edirik. Adicə yolda gedəndə hər zaman tanımadığım insanlar məni saxlayıb, İlqarı soruşurlar, yəni bu bir dəfə yox, dəfələrlə olub".

Xatırladaq ki, İlqar Məmmədov 23-24 yanvar 2013-cü il tarixində İsmayıllı şəhərində baş vermiş iğtişaşlarla əlaqədar həbs edilib. O, kütləvi iğtişaşlarda, polisə müqavimət göstərməkdə ittiham olunaraq 7 il müddətinə azadlıqdan məhrum edilib.

2014-cü ilin mayında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) İlqar Məmmədovun həbsi və həbsxanada saxlanması ilə Avropa İnsan Hüquqları Konvensiyasının bir çox müddəalarını, o cümlədən azadlıq və şəxsi toxunulmazlıq hüququ, ədalətli məhkəmə hüququ və təqsirsizlik prezumpsiyası prinsipi haqqında 5.1, 5.4 və 6.2-ci maddələrininin pozduğunu tanıyıb. Məhkəmə İlqar Məmmədovun hər hansı dəlil olmadan saxlandığı qənaətinə gəlib.

Avropa Şurası (AŞ) Nazirlər Komitəsi dəfələrlə Azərbaycan hakimiyyətini AİHM-in Məmmədovun işi üzrə qərarını icra etməyə çağırıb. Əvvəlcə Azərbaycan tərəfinə İ.Məmmədovun azadlığa buraxılması ilə bağlı ötən il oktyabrın 25-ə qədər vaxt verilmiş, ardınca bu vaxt noyabrın 29-a qədər uzadılmış, bu müddətdə isə o azad edilmədiyi üçün dekabrda ölkəmizlə bağlı prosedura başladılıb. Bunun əsasında isə Azərbaycan Avropa Şurasından ya çıxarıla, ya da səsvermə hüququndan məhrum edilə bilər. Rəsmi Bakıdan gələn ayın birinə kimi cavab verilməsi tələb olunur.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# REAL-dan Siyavuş Novruzovun iddiasına cavab

## Azər Qasımlı: "İlqar Məmmədovu azadlığa buraxın, seçkilərə qatılaq, gücümüzü hesablayın"



**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a prezident seçkisinin vaxtının dəyişdirilməsi ilə bağlı müsahibəsində hazırda həbsdə olan REAL sədri İlqar Məmmədov haqqında da fikirlər səsləndirib. Deputatın parlamentdə amnistiya ilə bağlı səsləndirdiyi təklifi ilə əlaqəli sual verən əməkdaşımız soruşub ki, təklifiniz İlqar Məmmədov və digərlərinin azadlığa buraxılmasına gətirib çıxaracaqmı?**

Siyavuş Novruzovun cavabı isə bu cür olub: "Mən orda da dedim ki, bəzi insanlardan istifadə edib ölkə haqqında mənfi imic formalaşdırmağa çalışırlar. Çalışırlar ki, o adamları qabarıq şəkildə versinlər. Keçən seçkilərdə deyirdilər ki, İlqar Məmmədov ona görə tutulub ki, o, prezidentliyə ən real namizəddir. İlqar Məmmədov bir bələdiyyəyə seçilə bilməz, qaldı ki, prezident. Bu bəhanələrin qarşısını almaq üçün təklif etdim ki, amnistiya hamıya tətbiq olunsun!"

**REAL hərəkatının icra katibi Natiq Cəferli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, əslində siyasi rəqiblərin bir-biriləri haqqında fikir söyləməsi, rəqibinin çəkisini azaltmağa yönələn bəyanatlar verməsi normaldır: "Siyasi praktikada bu, gözlənilir. Sadəcə olaraq, hakim partiyanın nümayəndələri bunu aşağılayıcı tonda edirlər ki, bu, doğru deyil. Ancaq yenə də belə yanaşmanı anlayışla qarşılayıram. Çünki İlqar Məmmədov ən böyük siyasi rəqiblərdən biridir. Bu siyasi rəqiblərin haqqında hakim partiyanın nümayəndəsi tərəfindən belə fikir söyləməkdən təbii bir şey ola bilməz. Əfvlə bağlı məsələyə gəlincə isə parlament çıxışında da hörmətli Siyavuş müəllim tərəfindən səsləndirilmişdi ki, əfv sərəncamı və amnistiya aktı qəbul oluna bilər. Düşünürəm ki, mart ayında əfv gözlənilir və çox ümid edirik ki, bununla İlqar Məmmədov azadlıqda ola bilər. Halbuki azadlıqda olması onun haqqıdır. Çünki onun azad edilməsi ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinin iki qərarı var. Yəni heç əfvə də ehtiyac yoxdur. Ancaq hər bir halda əsas məsələ İlqar Məmmədovun azadlığa çıxmasıdır ki, bunu da mart ayında gözləyirik. Martda da olmasa, əgər may ayında amnistiya olarsa, çox güman ki, seçkilərdən sonra amnistiya aktı ilə bir çox siyasi məhbuslar, o cümlədən İlqar Məmmədovun azadlığa qovuşacağına ümid edirik. Mart ayında olsaydı daha yaxşı olardı. Çünki seçkilərdən öncə bu günə qədər siyasi məhbuslarla bağlı Avropadan hakimiyyətə qarşı olan təzyiqlərə də son qoyulardı. Bu da hökumətə sərf edir. Hər halda, yaxın aylarda İlqar Məmmədovun azadlığını gözləyirik".

**REAL-ın Təşkilat Komitəsinin koordinatoru Azər Qasımlı "Yeni Müsavat"a bildirib ki, Siyavuş Novruzov belə hesab edirsə, heç bir problem yoxdur:** "İlqar Məmmədovun hüquqlarını bərpa edin, Avropa İnsan Haqları Məhkəməsinin qərarlarını həyata keçirin, imzatoplama kampaniyasında iştirak edək. 40 mindən çox imzanı topladığımız təqdirdə seçkilərdə iştirak edək. O zaman analiz edib İlqar Məmmədovun güc və imkanlarının nə olduğunu hər kəs görsün. Əgər Siyavuş Novruzov və digər YAP nümayəndələri hesab edirlərsə ki, prezidentə rəqib yoxdur, biz isə hesab edirik ki, belə deyil. Rəqib var. Rəqibin güclü olub-olmamasını proseslərdə, seçkilərdə bilmək olur. Əsas şəxs həbsdədirsə, təbii ki, rəqib olmayacaq. İlqar Məmmədovun əfvə düşəcəyinə də inanmıram. Çünki onun əfvlə bağlı müraciət etmək fikri yoxdur. Ancaq amnistiya, hər halda, ola bilər. Bununla bağlı bir söz deyə bilmərik. Söhbət prezident seçkisində İlqar Məmmədovun iştirakından gedirsə, gərək o zaman amnistiya fevral ayında olsun və onun üzərindən məhkumluq götürülsün. Yayda olacaqsa, seçki ilə bağlı bunun mənası yoxdur. İlqar Məmmədovla vəkili və həyat yoldaşından başqa heç birimiz görüşə bilmirik. Artıq 3 ildən çoxdur ki, bu, belədir. Son bir neçə aydır ki, vəziyyət daha da pisdir. Hazırda İlqar Məmmədova kitab, məktub da göndərmək mümkünsüzdür. Görüşməsək də telefonla danışırıq. Səhhətində problem yoxdur, vəziyyəti yaxşıdır".

**A.Qasımlı REAL-ın partiyaya çevrilməsi ilə bağlı aparılan işlər barədə də məlumat verib:** "Qurultayla bağlı bizə əngəllər törədilir. Yəni yer verilmir və müvafiq qurumlar tərəfindən açıq şəkildə məktub almışıq ki, bu məsələ ilə bağlı bizə müraciət etməyin. Deyirlər ki, qurultayınızı keçirməniz üçün bizdə sizə uyğun yer yoxdur. Ancaq halbuki Əmircan qəsəbəsində yerləşən mədəniyyət sarayını dəfələrlə digər siyasi təşkilatlara veriblər. Belə bir məlumat yayılmışdı ki, biz guya Gürcüstanda məxfi şəkildə qurultay keçirmək istəyirik. Bildiririk ki, bizim heç zaman belə bir fikrimiz olmayıb. Qurultayımızı açıq şəkildə keçirəcəyik. İstər Bakıda, istər bölgələrdə və ya xaricdə olsun. Qurultayı keçirən zaman da öncədən ictimaiyyətə məlumat verəcəyik. Gürcüstan məsələsi ilə bağlı məlumatı hakimiyyət yayıb. Mesajları da odur ki, Gürcüstanda belə qurultay keçirmək istəsəniz, buna imkan verməyəcəyik. Hər bir halda qurultayla bağlı işlərimiz davam edir və müəyyən düşüncələrimiz var. Bir dəqiqə də olsun, bu işlərdə fasilə vermirik".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Apreldən Qarabağ danışıqları intensivləşəcək - ekspertlərdən ehtiyatlı gözlənti

**Azərbaycan və Ermənistanda seçkilərin eyni ayda yekunlaşması anlaşma əleyhinə daha bir subyektiv əngəli aradan qaldıra bilər; politoloqlar konflikt ətrafında yeni situasiya barədə; erməni gənclər isə hərbi xidmətdən yayınmağın yeni üsulunu tapıblar...**



**Azərbaycanda erkən prezident seçkiləri elan edildi. Artıq tarix də bəllidir - 11 aprel. Diqqət çəkən məqamlardan biri də Azərbaycandakı seçkilərin işğalçı Ermənistandakı növbəti prezident və baş nazir seçkiləri ilə zaman etibarilə təxminən üst-üstə düşməsidir. Bu da sövq-təbii Dağlıq Qarabağ münaqişəsi kontekstində bəzi maraqlı mülahizələrə yol açıb.**

Yada salaq ki, Ermənistan apreldən etibarən parlamentli üsul-idarəyə keçəcək. Ölkədə əsas səlahiyyətli şəxs yeni prezident yox, yeni baş nazir olacaq. Baş nazirliyə əsas iddiaçı şəxs indiki prezident Serj Sərkisyan hesab edilir. Yeni prezident postuna isə hakim Respublikaçılar Partiyası prezident Sərkisyana yaxın şəxsin - Böyük Britaniyadakı səfir və imkanlı iş adamı Armen Sərkisyanın namizədliyini irəli sürüb. Həm prezidenti (martın 2-də), həm də baş naziri *(aprel)* hakim partiyanın çoxluqda olduğu parlament seçəcək.

*****

**Beləliklə, Qarabağ müstəvisində qarşıdakı seçkilərlə bağlı maraqlı bir gəlişmə qeyd edilə bilər. Bu yöndə ekspert rəyləri də kifayət qədər maraqlı sayıla bilər. Məsələn, Milli Məclisin deputatı, politoloq Rasim Musabəyova görə, prezident seçkilərinin vaxtının dəyişdirilməsi Qarabağ bağı güzəştlərlə bağlıdır. "Yeni Müsavat" xəbər verir ki, bu barədə o, özünün facebook səhifəsində yazıb.**

"Səbəb həm də Ermənistanda 2018-ci il aprelin sonunda dövlət başçısının artıq prezident deyil, parlament çoxluğunun təyin etdiyi baş nazirin olması nəticəsində ali hakimiyyətin formatının dəyişməsi də ola bilər. Yeni Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin Azərbaycanda oktyabrda prezident seçkilərinin gözlənməsi bəhanəsi ilə uzanmaması üçün onların vaxtını da aprelə dəyişmək qərarına gəliblər. Ola bilər ki, çətin, sıçrayış xarakterli güzəştlər gözlənilir və onları prezident seçkilərindən sonra həyata keçirmək daha yaxşıdır", - deyə o qeyd edib.

**Politoloqun sözlərinə görə, əgər Qarabağ probleminin həlli ilə bağlı vacib qərarların qəbul edilməsi ilin sonuna təxirə salınsa, danışıqların tempi aşağı düşə və sülh tənzimlənməsi prosesi yenidən nəticəsiz qala bilər.**

"Prezident seçkilərinin vaxtının irəli çəkilməsinin xüsusi əhəmiyyəti var. Çünki bu həm Ermənistan, həm də Rusiyada keçiriləcək prezident seçkiləri ilə təxminən eyni vaxta düşür. Əgər prezident seçkiləri oktyabr ayında olsaydı, bu, Azərbaycan dövlətinin müəyyən qədər əl-qolunu bağlaya bilərdi". Bu sözləri axar.az-a açıqlamasında **politoloq Qabil Hüseynli** növbədənkənar prezident seçkilərinin elan edilməsi haqda sərəncam barədə danışarkən söyləyib.

**O bildirib ki, seçkilər əvvəlcədən müəyyənləşdirildiyi kimi, oktyabrda keçirilsəydi, Dağlıq Qarabağla bağlı məsələlərdə hücum xarakterli siyasət yürütmək bir müddət çətinləşərdi.** "Rusiya və Ermənistanla təxminən eyni vaxtda prezident seçkilərinin keçirilməsi, ölkədə qeyri-müəyyənliyə son qoyulması, prezident hakimiyyətinin formalaşması bundan sonra Azərbaycanın daha qərarlı, daha ardıcıl və hücumçu siyasi mövqe ortaya qoyması üçün vacib idi. Bu - prezident İlham Əliyevin müdrik qərarıdır. Əgər prezident seçkiləri oktyabrda keçirilsəydi, Qarabağ probleminin həllindən diqqəti müəyyən zaman yayındıra bilərdi. Bildiyiniz kimi, seçkilər öncəsi Qarabağ danışıqlarında durğunluq yaşanır. Apreldə Ermənistandakı seçkilərdən sonra Azərbaycanda payızda seçkilərin olduğunu nəzərə alaraq, bu durğunluq bir neçə ay uzana bilərdi. İndiki şəraitdə seçkilərin qabağa çəkilməsi və onun qonşu ölkələrdəki prezident seçkiləri ilə eyni vaxta düşməsi Qarabağ müzakirəsi üçün "seçki fasiləsini" aradan qaldırır. Ən başlıcası isə Qarabağ problemi ilə daha ciddi məşğul olmaq üçün kifayət qədər vaxt və imkanlar qazandırır", - deyə politoloq bildirib.

*****

Qeyd edək ki, bənzər fikirlər başqa ekspertlərin də dilindən səslənməkdədir. Bu qəbildən ehtimalın nə dərəcədə həyat qabiliyyətli olduğunu isə yəqin ki, zaman göstərəcək. İstənilən halda, işğalçı Ermənistanın əlində apreldən sonra heç bir seçki bəhanəsi olmayacaq ki, sülh danışıqlarını tormozlasın. Buna müəyyən mənada konflikt ətrafında yeni situasiya da demək olar. Odur ki, belə bir ehtiyatlı proqnozu da vermək olar ki, artıq aprelin ikinci yarısından Qarabağ danışıqları daha keyfiyyətli mərhələyə keçməlidir. Əks halda, bu güclənən müharibə riskləri demək olacaq.

**Bu arada Ermənistanda ordunun yaranmasının ildönümünün bayram edilməsi ilə bağlı mübahisələr meydana gəlib. Bu xüsusda erməni politoloq Manvel Sərkisyanın fikirləri diqqət çəkir. Onun sözlərinə görə, hazırda hakimiyyət ən genişmiqyaslı manipulyasiyaları ordu üzərindən aparır.** "Ermənistanda kriminal-oliqarxiya siyasi sisteminin yarandığı, korrupsiya sxemləri vasitəsilə ordudan yayınan xüsusi kastanın formalaşdığı və orduda yalnız kasıbların xidmət etdiyi artıq aksioma çevrilib", - deyə o bildirib.

**M.Sərkisyan ölkədə dərin etibarsızlığın kök saldığına da diqqət çəkib.** "Millət-ordu" strategiyası çərçivəsində xüsusi kastaya yanaşmanı qanuniləşdirmək niyyətləri də aydın görünür. Aydındır ki, belə yanaşma heç vaxt cəmiyyəti və ordunu birləşdirə bilməz. Əksinə, rejim korrupsiyanın yeni sferalarını yaradır və haqsızlıq dərəcəsini gücləndirir. Bu isə ordu və təhlükəsizlik məsələsinə vətəndaşların neqativ münasibətini yaradır. Yeni ordu xalqın doğma övladı olmur, əksinə, onların gözündə hər şeyi yeyən bədheybətə çevrilir. Aprel müharibə Ermənistan ordusundakı vəziyyəti və rejimin ordu üzərindən varlandığını açıq şəkildə göstərdi" - erməni politoloq əlavə edib.

*****

Manvel Sərkisyanın fikirləri əslində yeni deyil və bir daha həm erməni cəmiyyəti, həm də erməni ordusundakı acınacaqlı duruma dəlalət edir. Məhz hakim rejimin oliqarxlaşması üçün kasıb ailələri öz övladlarını orduya göndərmək istəmir və artıq Ermənistanda ciddi şəkildə çağırışçı problemi yaşanır.

Yeri gəlmişkən, eyni səbəbdən ötən il Ermənistan parlamenti tələbələrin hərbi xidmətdən möhlət hüququnu ləğv elədi və bu ölkədə kütləvi etirazlarla müşayiət olunmuşdu. Lakin hakimiyyət bildiyini elədi, çünki kriminal Sərkisyan rejiminə "topa qoymağa ət" lazıdır. Vəziyyəti ciddiyə alan erməni gəncləri isə hərbi xidmətdən yayınmaq üçün bütün mümkün üsullara əl atırlar. Bu da təzə fakt.

**Ermənistanlı futbolçu Ovik Nersisyan hərbi xidmətə getməmək üçün İngiltərədən siyasi sığınacaq istəyib. "Yeni Müsavat" «Report»a istinadən xəbər verir ki, hazırda İngiltərənin Şimal-Qərb Liqasında çıxış edən "Uiçerç Alport"un formasını geyinən 23 yaşlı müdafiəçi həyatının təhlükədə olduğunu söyləyib.**

İki il öncə bu kluba üz tutan Nersisyan ölkəsində axtarışa verildiyini deyib: "Qayıtsam, həbs ediləcəyəm. Daha sonra hərbi xidmətə aparılacağam və həyatım təhlükədə olacaq. İki il öncə hərbi xidmətdən möhlət hüququ verilmişdi. İndi isə futbolçu olmağımın onlar üçün əhəmiyyəti yoxdur. Hakimiyyət hamını döyüşə göndərir. Azərbaycan mətbuatından oxumuşam ki, Ermənistan əsgərləri hər gün ölürlər. Şropşirdə təhlükəsiz şəraitdəyəm və burada yaşamaqdan xoşum gəlir. Məhkəmənin yaxşı qərar çıxaracağına ümidvaram".

Qeyd edək ki, "Uiçerç Alport" klubu Ovik Nersisyana kömək etmək məqsədi ilə vəkil tutub. Həmçinin onun İngiltərədə qalması üçün petisiya elan olunub. Artıq min nəfərin imzaladığı sənəd həftəsonu İngiltərənin Daxili İşlər Nazirliyinə göndəriləcək. Məhkəmə yekun qərarını fevralın 19-da açıqlayacaq. Nersisyan daha əvvəl vətənində "Pünik"in formasını geyinib.

**Necə deyərlər, əlavə şərhə ehtiyac qalmır.**



# Bayıldakı sürüşmə zonasında müəmmalı vəziyyət

## Sürüşmə sahəsində aktivlik müşahidə olunmasa da, ərazidə yaşayan sakinlər evlərinə buraxılmır

**Bayıl yamacında sürüşmənin baş verdiyi ərazidə artıq 10 günə yaxındır ki, vəziyyət stabil olaraq qalır. Bu barədə "Yeni Müsavat"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov məlumat verib. O bildirib ki, fevralın 6-da da əməkdaşları ərazidə olublar və qoyulan mayaklarda hansısa bir dəyişiklik müşahidə etməyiblər.**

**Əziz Qaralovun sözlərinə görə, hazırkı vəziyyətdə ərazidə təhlükə yoxdur:** "Ərazidə hazırda mütəxəssislərimiz tərəfindən heç bir aktivlik müşahidə olunmayıb. Hava şəraitinin, qar yağmasının ərazidə vəziyyətə təsirinə gəlincə isə burada da müxtəlif məqamlar var. Əvvəla, baxır qar nə qədər yağır. Sürüşmə ona görə qar yağan zaman aktivləşir ki, hopma baş verir. Yağış yağır, özünə çuxur taparaq axıb gedir. Qar yağdıqda isə yerə hopma baş verir. Ancaq bir şey də var ki, yarğan əmələ gələn zaman orada biz heç bir nəmlənmə müşahidə etmədik. Proseslər səthdə deyil, müəyyən dərinlikdə gedirdi. İndiki məqamda nisbi sakitlikdirsə, deməli, camaat üçün təhlükə yoxdur. Sabah necə olacaqsa bunu demək olmaz. Təbiətdir, dəyişikliklər olur. Çox güman ki, müəyyən tədbirlər görüləcək. O mənada ki, müvafiq qurumlar tərəfindən tədqiqat işləri aparılıb və sonda bütün nəticələrə baxılıb, tədbirlər görüləcək. Ya torpaq qatını götürəcəklər, ya başqa nə isə edəcəkləri nəticələr məlum olduqdan sonra bilinəcək".



**Mütəxəssis sürüşmənin yay aylarında davam edib-etməyəcəyi ilə bağlı aşağıdakıları söylədi:** "Şəhidlər Xiyabanına yaxın, əbədi məşəlin önündə çökmə prosesi baş vermişdi, nəticədə 35 metrə yaxın kütlə oturdu. Həmin zaman mart ayı idi və havalar da yağmurlu deyildi. Ancaq orada bu cür hadisə baş verdi. Ona görə də yağış da yağan kimi ərazinin sürüşməsi baş vermir. Bunun üçün müəyyən zaman lazımdır. Sürüşməyə meylli ərazilərdə bu cür olur. Sadəcə olaraq, hazırkı sürüşmə baş verən yerdə yamacın istiqaməti aşağı hissələrdə 40-45 dərəcədən yuxarıdır. Laylar da həmin istiqamətdə olmaqla bir-birinin üstündə yatır. Yəni bir-birini tamamlayır. Təbii olaraq aşağıda isə yamac vertikal formada kəsilib və nəticədə kütlənin dayanıqlığı azalıb. Bu da sürüşmənin baş verməsi üçün səbəblərdən biridir. Eyni zamanda orada olan yağış suları nəticəsində kütlə ağırlaşıb, süxurlar arasında olan müqavimət nəticəsində bir-birinə birləşici qüvvələr itib. Ağırlıq nəticəsində sürüşməyə meylli ərazidə bu cür hallar olur. Həmin ərazi də sürüşməyə meyllidir. Hələ bizim 2004-cü ilin hesabatımızda coğrafi koordinatlarla birlikdə konturları biz vermişdik. Göstərmişdik ki, bura sürüşməyə təhlükəli ərazidir. Bu gün gedən proseslərin proqnozunu hələ biz illər öncə vermişdik".

Sürüşməyə yaxın ərazidə yaşayan əhalinin isə vəziyyəti dəyişməz olaraq qalır. Hələ də onların bir qismi sığınacaqda, digərləri isə qohumlarının evlərində yaşayırlar.

**"Yeni Müsavat"a danışan sakin Zahid Aslanov bildirib ki, camaatın bir qismi gündüzlər evlərinə gəlirlər:** "Gecələr isə soyuğun, şəraitsizliyin əlindən yenə də qohum evinə gedirik. Kirayə çıxarılmağımızla bağlı heç bir xəbər yoxdur. Ümumiyyətlə, artıq ərazidə rəsmi nümayəndələrə rast gəlinmir. Bu gün ərzində sürüşmə baş verən yerə heç bir rəsmi şəxs gəlməyib. Burada yalnız camaat və polislər dayanıb. Camaat da evinə ona görə gəlir ki, birdən hansısa oğurluq və ya başqa bir hadisə olar. Çox çətin vəziyyətdəyik. Ancaq bizə konkret söz deyən yoxdur".

Sakinlər həmçinin qeyd ediblər ki, kommunal xətləri hələ də şəbəkəyə qoşulmayıb.

Qeyd edək ki, Bayıl yamacında sürüşməyə meylli, riskli ərazidə 67 ev müəyyənləşib. Sakinlərin köçürülməsi üçün ərazidəki idarə, təşkilat və müəssisələrdə müvəqqəti sığınacaqlar yaradılıb. APA-nın xəbərinə görə, Bayıl yamacındakı sürüşmə sahəsində yaşayan sakinlərdən 73 nəfəri 24 yanvardan müvəqqəti olaraq Bakı şəhərindəki 163 nömrəli tam orta məktəbin akt zalı və 3 tədris otağında yerləşdirilib. Hazırda isə həmin sakinlərdən yalnız 42 nəfəri məktəbdə məskunlaşıb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Məktəb direktoru ilə aktyorun davası böyüdü

## Aqil Abbas: "O videoda Rza həyatdakı idi, bu dəfə aktyor direktor idi"

**Tanınmış aktyor Rza Rzayevin 220 saylı məktəb-liseyin direktorunu təhqir edərək hədələməsi ilə bağlı məsələ gündəmdə olan mövzulardandır. Baş vermiş bu olayla bağlı cəmiyyətdə çoxsaylı fikirlər var. Xüsusən də sosial şəbəkədə gedən müzakirələrdə fikirlər haçalanır. İnsanlar arasında R.Rzayevin direktorla o tonda, o cür ifadələrin müşayiəti ilə danışmasını doğru hesab etməyib onun "oynadığı rolların təsiri altından çıxa bilmədiyini" iddia edənlərlə yanaşı, haqsızlığa uğrayan aktyorun hərəkətlərinə haqq qazandıranlar da var.**




R.Rzayev isə müsavat.com-a geniş müsahibəsində bu olayın başvermə səbəblərinə toxunub. Bildirib ki, söhbət direktorun əxlaqsız davranışlarından və ona layiqli cavab verməsindən gedir. O, direktorun hər bir müəlliməni çağıraraq onlardan atmacalarla adının mənasını soruşduğunu deyib. O, eyni zamanda direktorun bir çox qanunsuz hərəkətlərə yol verdiyini və bu barədə faktları istintaq orqanlarına təqdim edəcəyini deyib. R.Rzayev eyni zamanda artıq polis orqanlarına baş vermiş hadisə ilə bağlı ifadə verdiyini də deyib. Özünü "Azərbaycan qadınlarının şərəfini qorumaq" missiyasının daşıyıcısı adlandıran müsahibimiz buna görə hansısa cəza alacaqsa, bunu qəbul edəcəyini də vurğulayıb *(müsahibənin geniş versiyası ilə müsavat.com saytında tanış ola bilərsiniz - S.T.)*

**"Yeni Müsavat" gün ərzində 220 saylı məktəb-liseyin direktoru Tural Mirzəyevlə əlaqə saxlamağa cəhd göstərsə də, məktəbdən direktorun Bakı Şəhər Baş Təhsil İdarəsinə çağırıldığını, daha sonra isə telekanallara müsahibə verdiyini dediyiblər. Amma T.Mirzəyev "Qafqazinfo"ya açıqlamasında R.Rzayevin iddialarını əsassız adlandırıb:** "Mənim Tural Mirzəyev olaraq bir neçə ictimai vəzifəm var. Onlardan biri məktəb direktorluğudursa, digəri kiminsə atası, kiminsə oğlu, qardaşı olmağımdır. Kim məni tanıyırsa, bilir ki, elə bir insan deyiləm. O, məni direktor kimi görüb gəlib və mən əxlaqımı, təmkinimi qoruyub etik qaydalarda ictimai borcumu yerinə yetirməyə məcbur olmuşam. Direktor olaraq bilirəm ki, yuxarı instansiyalar var və burada mənim hər hansı bir əlavə söz deməyimə ehtiyac yoxdur. Hazırda direktor kimi məktəbin, rəhbərliyin adını təmizə çıxarmaq üçün çalışıram. Ancaq daha sonra mən bir şəxs kimi öz hüquqi mübarizəmə başlayacam. Mənim bir ailəm var və həmin şəxs ailəmi təhqir edib. Səs yazısında bəzi səhvlər var, o, mənim anama, bacıma nəsə deyə bilməz. Ancaq mənə qarşı deyilmiş hələ çox ifadələr də var ki, o videoda yoxdur. Hazırda, sadəcə, qanuna sığınmışam".

**Gördüyünüz kimi, ortada mübahisə edən tərəflərin bir-birindən ziddiyyətli açıqlamaları var. Millət vəkili Aqil Abbasın "Dolu" filmi ilə məşhurlaşan R.Rzayev barədə isə ən maraqlı açıqlamanı elə A.Abbas verdi. "Yeni Müsavat"ın müxbiri ilə söhbətində millət vəkili bildirdi ki, 6 ildir Rza ilə dostluq edir:** "Rza həyatında bu günə qədər nə kiminsə xətrinə dəyib, nə də kimisə təhqir edib. Uşaq kimi saf və təmizdir. Belə bir adamın bu hərəkəti də səbəbsiz deyil və ola da bilməz. Mən də durduğum yerdə gedib heç kimlə dalaşmaram. Təbii ki, bu hadisənin bir yaranma səbəbi var idi. Amma bu, yenə də ona gedib kimisə təhqir etməyə haqq vermir. O videoda bir şey var idi: Rza həyatdakı idi, bu dəfə aktyor direktor idi. Çünki o, çəkilişin olduğundan xəbərdar idi. Nağd bilir ki, çəkirlər. Rza da səbirsizlik etdi. Bu, gözlənilməz məsələ idi. Təbdən çıxarmaq məsələsi var. Təbdən çıxarmaq məsələsi ilə çoxları maraqlanmır, nəticə ilə maraqlanır. Məktəb direktoru bu görüntünü bütün saytlara paylayıb".

**Müsahibimiz eyni zamanda dedi ki, R.Rzayev bu hadisədə şöhrətin gücündən istifadə etməyib. Onun sözlərinə görə, aktyorun yanında bir söz danışanda dərhal qızarır:** "O, bu günə qədər populyarlığından istifadə etməyib. O, İstanbulda rejissorluq təhsili alıb. Mən ora da getmişəm. Orda insanlar da onun təvazökarlığından heyrətə gəlirdi. Rza populyarlığından istifadə etsə, evini satıb kino çəkməzdi. Gedərdi kiminsə yanına, deyərdi ki, mənə 50-100 min pul lazımdır kino çəkmək üçün. Və onu Rzaya verərdilər. Onu sevənlər, dostlar var".

**A.Abbas bu olayla bağlı yazdığı "Zalım dostların, zalım qardaşların qardaşı "Drakon"" yazısında isə qeyd edib ki, Rzanın hərəkəti xoşagələn olmasa da, bunun arxasındakı məqamlara nəzər yetirmək lazımdır:** "Görən kiminsə əzizi hər hansı bir haqsızlıqla, təhqirlə, xoşagəlməz bir hadisə ilə qarşılaşarsa, həmin kimsələr özlərini necə aparar?... Bu məsələyə qanun çərçivəsində baxılarsa, elə birinci Rzanın qələmə aldığı və faktlara söykənən məsələ araşdırılmalıdır. Həm Təhsil Nazirliyi tərəfindən, həm də hüquq-mühafizə orqanları tərəfindən. Rza da yəqin ki, hər hansı bir cəzanı məmnuniyyətlə qəbul edər".

Təhsil Nazirliyi İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Cəsarət Valehov isə "Yeni Müsavat"a açıqlamasında bu hadisə ilə bağlı hazırda araşdırma aparıldığını dedi. Müsahibimizdən araşdırma çərçivəsində R.Rzayevin məktəb rəhbərliyi ilə bağlı iddialarının da araşdırılıb-araşdırılmadığını soruşduq. Dedi ki, hazırda ancaq R.Rzayevlə məktəb direktoru arasında baş verən hadisənin detalları araşdırılır.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018



# Aşıq Ələsgər haqda kitabdakı saxtakarlığın ifşası aranı qatdı - qalmaqal

## Aşıqlar Birliyinin sədri: "Nəzir Əhmədlidən soruşdum ki, sən Ermənistan Milli Arxivinə necə, nə cür giribsən?"

**Ermənistan Milli Arxivinə istinadən ötən ilin yayında Bakıda çap olunan "Haqq-nahaq seçilər haqq divanında" kitabındakı iddialar aranı qarışdırıb. Çap məhsulunda Azərbaycanın tanınmış aşıqları - Aşıq Ələsgər və digərlərinin doğum tarixlərini saxtalaşdırmaqla aşıqlar bir neçə 10 il cavanlaşdırılır.**

Bu "cavanlaşdırmanın" üzərindən ümumilikdə Qərbi Azərbaycanda türklərin tarixinin elə də dərin olmadığı iddiası ortaya qoyulur. Eyni zamanda Qərbi Azərbaycanda qədim türk adlarının erməniləşdirilməsinə yönəlik "faktlar" ortaya atılır. Kitabda istinadların 90 faizi Ermənistan Milli Arxivində saxlanıldığı iddia olunan sənədlərədir. Ötən ilin yayında dərcindən sonra böyük qalmaqallara səbəb olan kitabın müəllifi Atatürk Mərkəzinin şöbə müdiri Nazir Əhmədli, elmi redaktoru Atatürk Mərkəzinin sədri, deputat, akademik Nizami Cəfərov, rəyçisi isə AMEA-nın Folklor İnstitutunun xarici əlaqələr departamentinin rəhbəri Əli Şamildir. Kitabdakı saxtakarlıqları ifşa edən sənəd iki gün öncə Qərbi Azərbaycan kökənli ziyalıların düzənlədiyi, doğma yurdlarından deportasiya olunmalarının 30 illiyi ilə bağlı "Yurd həsrəti" adlı tədbirdə nümayiş olunub. Tədqiqatçı Sabutay Hacıyev Rusiya Federasiyasının Dövlət Arxivindən Aşıq Ələsgərlə bağlı əldə etdiyi sənədi təqdim edərək bildirib ki, sənədə əsasən, Aşıq Ələsgər iddia edildiyi kimi, 1852-ci ildə deyil, əvvəlki tədqiqatçıların da araşdırdığı kimi, 1821-ci ildə dünyaya gəlib.

**Bu haqda "Yeni Müsavat"da "Aşıq Ələsgər haqda kitabdakı saxtakarlıqlara qarşı sənəd ortaya qoyuldu - FOTOFAKT" sərlövhəli yazının dərcindən sonra Nəzir Əhmədli özünün facebook divarında status yazmaqla münasibət bildirib. Həmin statusu təqdim edirik:**

"Dost-tanış deyirdi, deyəsən, səsləri kəsilib, sən demə latargeya yuxusuna gedib qüvvə toplayırmışlar.

İndi də Sabutay Hacıyev adlı bir nəfər qaragüruhçunun ilhamvericisi rolunda irəli çıxıb. Hələ ötən yay guya Rusiya Dövlət Arxivinə istinadən yazmışdı ki, 1879-cu ildə Rusiyada keçirilən ümumi siyahıyaalmaya görə müəyyən edib ki, həmin il Ələsgərin 58, arvadı Anaxanımın 50 yaşı olubmuş...

S.Hacıyevin təqdim etdiyi düzməcə sənəd haqqında aşağıdakıları bildirmək istəyirəm:

**1.**S.Hacıyev keçən dəfə yazmışdı ki, Rusiyada ilk siyahıyaalma 1879-cu ildə keçirilib. Sonradan hansısa məlumatlı adam ona başa salıb ki, həmin siyahıyaalma 1897-ci ildə keçirilib. İndi həmin səhvini etiraf etsə, Ələsgərlə Anaxanıma düzəltdiyi 58 və 50 rəqəmləri alt-üst olar, ona görə yenə həmin rəqəmi təkrar edir və düzəltdiyi sənəddə göstərir ki, siyahıyaalmanın nəticələri 1897-ci ildə çap edilib. S.Hacıyev bir şeyi nəzərə almır ki, vikipediyadan 1 dəqiqə ərzində hər cür məlumatı dəqiqləşdirmək olur. Həqiqət isə budur ki, siyahıyaalma 1897-ci ildə keçirilib, onun nəticələri isə 1899-1905-ci illərdə çap olunub. Cəmi 89 cild və 119 kitab!

- Arxiv işindən tamamilə bixəbər olan S.Hacıyev bilmir ki, 1917-ci il inqilabına qədər olan sənədlər Rusiya Dövlət Arxivində yox, Rusiya Dövlət Tarix Arxivində saxlanılır. Rusiya Dövlət Arxivi S.Hacıyevin guya müraciət etdiyi arxiv Moskva şəhərində, Rusiya Dövlət Tarix Arxivi isə S.Peterburq şəhərindədir və o da oraya müraciət etməli idi.

- Aşığın nəvəsi və bioqrafı İ.Ələsgər dəfələrlə Aşıq Ələsgərin 41 yaşında evləndiyini və Anaxanımın o vaxt 25 yaşında olduğunu yazıb, yəni İ.Ələsgərə görə Aşıq Ələsgər Anaxanımdan 16 yaş böyük idi. S.Hacıyev isə Ələsgəri Anaxanımdan cəmi 8 yaş böyük göstərməklə, İslam Ələsgəri yalanlayır.

- 1897-ci ilin siyahıyaalmasında adamların adı yoxdur, ancaq yaşayış məntəqələri üzrə sayı və başqa statistik göstəricilərdir və həmin sənədlərdə guya Ələsgərlə Anaxanımın adlarının olduğunu iddia etmək camaatı ələ salmaq və fırıldaqçılıqdır.

- Bir şeyi başa düşmürəm ki, Ələsgərin 1852-ci ildə doğulduğunu həzm edə bilməyənlər niyə kədərlənirmiş və indi də S.Hacıyevin düzməcəsindən nəyə görə toy-bayram edirlər? Doğum tarixinin dəqiqləşdirilməsi, məncə, adi bir işdir və ağlamalı bir səbəbi yoxdur.

- Qaragüruh nəzərə alsın ki, onların bu cür məntiqsizliyi, təhqiramiz hərəkətləri beynimdə ideya şəklində mövcud olan başqa bir kitabımı yazmağa məni vadar edir. Həmin kitabın mövzusu indiyə qədərki polemikalar, qaragüruhun törətdikləri mənasiz hərəkətlər olacaq və bu cür əməllərindən əl çəkib özlərini daha da bataqlığa sürükləməsinlər..."

**N.Əhmədli həmçinin yazır ki, belə şeylərə ayırmağa vaxtı yoxdur, çünki AMEA-nın Tarix İnstitutunda müəllifi olduğu 5 cildlik "İrəvan əyalətinin kameral təsviri" kitabı, paralel olaraq "Qazax qəzasının Kameral təsviri" kitabı da çapa hazırlanır:**

"Qaragüruh mənə mane olmağı özünün başlıca məqsədi sayırsa, əmin olsunlar ki, istədikləri ürəklərində qalacaq. Necə ki, onların ideya rəhbəri E.İsmayılın da imzaladığı və DTK-ya göndərdikləri donos nəticəsiz qaldı... Mən dərələyəzli Aşıq Cəlilin də doğum tarixini müəyyənləşdirdim. Məlum oldu ki, o, indiyə qədər yazıldığı kimi, 1850-ci ildə yox, 1868-ci ildə doğulub, bu il 150 yaşı tamam olur və onun 150 illiyi də qeyd ediləcək. Başqa aşıqlar haqqındakı tədqiqatlarım da davam edir".

N.Əhmədli bu statusu ilə yanaşı onun Ermənistan Milli Arxivinə istinadla ortaya atdığı iddiaları alt-üst edən sənədin elan olunduğu tədbirin təşkilatçılarına da hücumlar edib.

O, təşkilatçılardan olan Qabil Zimistanoğlunun facebook paylaşımının altına yazıb: "S.Hacıyevin fotoşopla düzəltdiyi o cür "donqili" kağıza doğrudan inanıb, başqalarını da inandırmağa çalışırsınız? Çox təəssüf! Gələcək kitabım üçün mənə mövzular verirsiniz!"

**Q.Zimistanoğlu:**

"Naxçıvanlılar demişkən, "donqili" sənədlər ermənilərin hansısa formada sənə göndərdiyi informasiyalardır. Çox hörmətli Sabutay Hacıyevin əldə etdiyi sənəd Rusiya Federasiyasının Dövlət Arxivinin rəhbərliyi tərəfindən təsdiq olunmuş hüquqi sənəddir. Sən də heç olmasa, Ermənistan Milli Arxivinin rəhbərliyinin möhür və imzası ilə təsdiqlənmiş hər hansı sənəd ortaya qoy ki, onun "mötəbərliyinə" inanaq..."

**Tədbirin digər təşkilatçısı Mürvət Yusifov da mübahisəyə qoşulub:**

"Nəzir Əhmədli, ümummilli çalışmalarımıza qara yaxmaqla, 4 fevralda bütün mahalları əhatə edən toplantıya böhtan atmaqla şou düzəltməyə çalışma! Bunun bədəli daha ağır olacaq. Yurdumuza laqeyd baxanları, biganə yanaşanları ictimai qınağa tuş gətirəcəyik. Necə ki, yazdığın çap məhsulları güclü ictimai təpki ilə qarşılandı... Ultimatumla, xoxla danışmağına son ver..."

**"Yeni Müsavat" əməkdaşı tanınmış aşıqların həyatları, doğum tarixlərinin Ermənistan Milli Arxivinə istinadla kitablara köçürülməsinə Azərbaycan Aşıqlar Birliyinin (AAB) sədri Məhərrəm Qasımlının münasibətini öyrənib.**

**O deyib:** "Nəzir Əhmədli mənim yanıma da gəlmişdi. Aşıq Ələsgərin doğum tarixi ilə bağlı danışdı, ona dedim ki, get sənədləri gətir baxaq. O gedən getdi. Bu günlərdə Rusiya Arxivindən bir başqa sənəd gətirilib. Həmin sənəddə Aşıq Ələsgərin doğum tarixi hamının bildiyi kimi qeyd olunur. Mən Nəzir Əhmədlidən soruşdum ki, sən Ermənistan Milli Arxivinə necə, nə cür giribsən? Onun özünə də dedim ki, bu elə belə məsələ deyil. Ermənistan Milli Arxivi düşmən ölkədə yerləşirsə, sən ora necə girmisən, hansı əsasla girmisən? Onun ortaya atdığı sənədlər əsassızdır. Rusiya Dövlət Arxivindən gələn sənəd onu tam ifşa edir, iddialarının boş bir şey olduğunu ortaya qoyur. Həftəsonu ABB-nin məsələ ilə bağlı mövqeyi ifadə ediləcək".

❑ **E.MƏMMƏDƏLİYEV**



# İtkin düşən alpinistlərin axtarışları davam etdirilir

**Dekabrın 23-də Quba rayonunun Xınalıq kəndindən Tufandağ istiqamətində yürüşə çıxmış "Gilavar" hava və ekstrim idman klubunun 3 üzvü Babur Hüseynov, Namin Bünyatov və Fəridə Cəbrayılzadə hələ də tapılmayıblar.**

Dekabrın 26-dan başladılan alpinistlərin axtarışları heç bir nəticə vermir. Alpinistlərin axtarışında heç bir fasilə verilməyib. Ehtimal olunan bütün istiqamətdə axtarışlar davam etdirilir. Hazırda Fövqəladə Hallar Nazirliyinin helikopteri vasitəsilə də axtarışların davam etdirildiyi bildirilib. Ötən günlər ərzində alpinistlərin axtarışında xaricdən gələn mütəxəssislərin də bilik və bacarığından istifadə olunub. Ancaq cəhdlər nəticəsiz qalıb. Axtarışlar dərədə aparıldığı üçün xeyli çətin olduğu bildirilir. Buna baxmayaraq axtarış heyəti tez-tez əvəzlənməklə hava şəraiti imkan verdikcə axtarış işlərinin fasiləsiz şəkildə aparılmasına çalışılır.

Onu da qeyd edək ki, alpinistlərin axtarışı ilə əlaqədar Quba rayonunda Mahmuddərə ərazisində qərargah yaradılıb. Bəzi alpinistlər hesab edirlər ki, hazırkı şəraitdə axtarışların davam etdirilməsi oradakı qrupun da həyatı üçün təhlükə yarada bilər. Lakin yanvarın 9-da Fövqəladə hallar nazirinin müavini, general-leytenant Faiq Tağızadə itkin düşmüş alpinistlərin axtarışı ilə bağlı yaradılan qərargahda keçirilən mətbuat konfransında demişdi ki, itkin düşən üç alpinist tapılana kimi axtarışlar davam etdiriləcək. O bildirmişdi ki, bununla bağlı fövqəladə hallar naziri Kəmaləddin Heydərovun tapşırığı var.

❑ **ƏLİ RAİS,**
**"Yeni Müsavat"**



# 763 nəfər qalıb...

**Son rəsmi məlumatlara görə, hazırda Azərbaycanda İkinci Dünya müharibəsi iştirakçılarının sayı 763 nəfərdir. Bu barədə modern.az-ın sorğusuna cavab olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilib.**

Qeyd edilib ki, onlardan hazırda 431 nəfəri müharibə əlili kimi, 332 nəfəri isə müharibə iştirakçısı kimi Prezident təqaüdü alır.

Həmçinin İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə də aylıq 110 manat məbləğində olmaqla Azərbaycan Prezidentinin təqaüdləri verilir.

Rəsmi məlumata görə, bu sosial təminat növü ilə bərabər, İkinci Dünya müharibəsi əlilləri və iştirakçıları əmək pensiyaları ilə təmin olunurlar və onların yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlavələr də hesablanıb.

İkinci Dünya müharibəsində 600 minədək Azərbaycan vətəndaşı iştirak edib. Onlardan yarıdan çoxu həlak olub.

**Mülki Məcəlləyə böyük əhəmiyyətə malik olan dəyişikliklər dərc edilib. "Yeni Müsavat" xəbər verir ki, bu haqda iqtisadçı Əkrəm Həsənov sosial şəbəkədə yazıb. O bildirib ki, tikintisi başa çatmayan binalar, yəni tikintisinə icazə alınmış, lakin istismarına icazə verilməmiş binalardakı mənzillərə və qeyri-yaşayış sahələrinə mülkiyyət hüququna dair bu dəyişikliklərin böyük əhəmiyyəti var.**



# Mənzil fırıldaqçılığına son-yeni binalarla bağlı inqilabi yenilik

## Tikintisi başa çatmayan mənzillərə "kupça" qabaqcadan veriləcək

**Məlum olduğu kimi, bu sahədə 2 əsas problem mövcuddur:**

**1)** tikinti şirkətləri mənzilləri eyni zamanda bir neçə nəfərə satır;

**2)** tikinti şirkətləri mənzillərə görə ödənişi alır, amma tikintini başa çatdırmır, yaxud proses çox uzanır.

**Məcəlləyə edilən dəyişikliklər bu problemlərə son qoyacaq.**

**1.** Belə ki, əvvəla, tikintisi başa çatdırılmayan mənzillərə mülkiyyət hüququ Daşınmaz Əmlakın Dövlət Reyestrində qabaqcadan dövlət qeydiyyatına alınacaq ("kupça", yəni çıxarış veriləcək). Özü də yalnız mənzilə yox. Binanın altındakı torpaq sahəsi də mənzil mülkiyyətçilərinin ümumi paylı mülkiyyəti hesab olunacaq. Beləliklə də bir mənzili bir neçə şəxsə satmaq artıq mümkün olmayacaq. Torpaq da mənzil mülkiyyətçilərinə məxsus olduğu üçün tikinti şirkəti işini görməsə, onu başqası ilə əvəz etmək mümkün olacaq.

**2.** Tikinti şirkəti isə mənzil mülkiyyətçilərinin podratçısı (işçisi) hesab olunacaq. Yəni onun işi sırf binanın tikib təhvil verməkdən ibarət olacaq. Özü də pulunu da qabaqcadan tam ala bilməyəcək, hissə-hissə almalıdır. Qanuna əsasən müqavilədə ayrı mərhələ və hissələr nəzərdə tutulmayıbsa, alış qiymətinin (muzdun) ödənilməsi tikintinin mərhələləri üzrə hissələrlə aşağıda göstərilən faizlərdən çox olmamaq şərti ilə aparıla bilər:

**1)** torpaq-qazma işlərinin başlanılmasından sonra - müqavilə məbləğinin 30 faizi;

**2)** tikilinin yan və daxili divarları, dam örtüyü hazır olduqdan sonra - müqavilə məbləğinin 10 faizi;

**3)** dam səthlərinin və navalçaların (novların) qurulması işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 8 faizi;

**4)** istilik təchizatı sistemlərinin quraşdırılması başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

**5)** su xətlərinin çəkilməsi başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

**6)** elektrik xətlərinin çəkilməsi başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

**7)** pəncərələrin quraşdırılması (şüşələrin taxılması da daxil olmaqla) başa çatdıqdan sonra - müqavilə məbləğinin 10 faizi;

**8)** daxili suvaq (malalama) işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 6 faizi;

**9)** birdən artıq tərkib hissəsi olan binada birdən artıq tərkib hissəyə xidmət edən sahələrin döşəmələri hazır olduqdan sonra - müqavilə məbləğinin 3 faizi;

**10)** fasad işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 10 faizi;

**11)** su anbarı da daxil olmaqla, binaya xidmət edən və binadan ayrıca inşa edilən obyektlərin tikintisi başa çatdıqdan sonra - müqavilə məbləğinin 9 faizi;

**12)** bina tam hazır olduqdan və onun istismarına icazə verildikdən sonra - müqavilə məbləğinin 5 faizi.

Beləliklə, tikinti şirkəti sahibləri pulu götürüb aradan çıxa bilməyəcək.

Bu dəyişikliklər cari il iyulun 1-dən qüvvəyə minəcək. Beləliklə də Azərbaycanda nəhayət ki, bu problemlər həll olunacaq və insanlarımız əminliklə yeni binalarda mənzil ala biləcək. Eyni zamanda bütün inkişaf etmiş ölkələrdə olduğu kimi bizdə də yavaş-yavaş "vahid daşınmaz əmlak" institutu formalaşacaq. Yəni daşınmaz əmlak ilk növbədə torpaqdır, üstündəki isə onun tərkib hissəsidir.

Mən müsahibələrimdə bu barədə fikirlərimi səsləndirmiş, təkliflərimi vermişdim. Yekunda da qanuna edilən dəyişikliklər məhz bu formada oldu. Ümid edirəm ki, dəyişikliklərin icrası da yüksək səviyyədə həyata keçiriləcək. Hər bir halda dövlət başçısının təşəbbüsü ilə atılan bu addım ölkə iqtisadiyyatımız üçün çox müsbət nəticələr verəcək!

# Daha bir "Nardaran işi" məhkəməsi

## Əbülfəz Bünyatov məhkəməyə təcili yardım maşınında gətirildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Nardaran işi" üzrə təqsirləndirilən Elxan İsgəndərov və Əbülfəz Bünyatovun məhkəməsi keçirilib.**



Müsavat. com-un verdiyi xəbərə görə, hakim Əfqan Hacıyevin icraatında olan prosesdə hazırlıq iclası keçirilib. Ev dustaqlığında olan yataq xəstəsi Əbülfəz Bünyatov təcili tibbi yardım maşını ilə məhkəməyə gətirilib. O, zalda həkimlərin nəzarəti altında saxlanılıb.

Təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Ə.Bünyatov bildirib ki, himayəsində 4 azyaşlı uşaq var. O, Odlar Yurdu Universitetinin hüquq fakültəsini bitirdiyini, əvvəllər məhkumluq həyatı yaşadığını söyləyib.

E.İsgəndərov deyib ki, himayəsində 3 azyaşlı uşaq var.

Onun vəkili Fariz Namazlı vəsatət verərək müvəkkilinin cinayət işinə xitam verilməsini, E.İsgəndərovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsini istəyib.

Ə.Bünyatovun vəkili isə deyib ki, müvəkkilinin səhhətində ciddi problemlər olduğu üçün məhkəməyə gələ bilmir. Vəkil cinayət işinin ayrıca icraata ayrılması barədə vəsatət verib. Hakimlər kollegiyası vəsatətlər təmin edilmədiyini açıqlayıb.

Proses fevralın 13-də davam etdiriləcək.

E.İsgəndərov 5 noyabr 2015-ci ildə Sabunçu Rayon Polis İdarəsinin qarşısında keçirilən aksiyadan sonra saxlanılıb və 15 gün müddətinə inzibati həbs olunub. Daha sonra Sabunçu rayon prokurorunun protesti əsasında Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Sabunçu Rayon Məhkəməsinin qərarı ləğv olunaraq, onun əməllərində cinayət tərkibinin olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə iş Sabunçu Rayon Prokurorluğuna göndərilib.

E.İsgəndərov axtarışda olduğundan 15 mart 2017-ci ildə polis əməkdaşları tərəfindən həbs olunub və barəsində həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Nardaran qəsəbəsindəki əməliyyat zamanı qarşıdurma Ə.Bünyatovun evində baş verib.

# Reket jurnalistlərin məhkəməsinə intim videoları çəkilənlər gəldi

## Bu səbəbdən məhkəmə prosesinin qapalı keçirilməsinə qərar verildi

**"Reket"çilikdə ittiham edilərək DTX tərəfindən həbs edilən şəxslərin məhkəməsi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyev, onu müavini Hikmət Nəcəfli, "İlk xəbər" saytının baş redaktoru Gülbəniz Əliyeva, işçiləri İlahə Qasımova, Sevinc Məmmədsalayeva və "Kriminal" qəzetinin baş redaktoru Maarif Abbasovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmişlər ifadə verib. Məhkəmədə prosesin qapalı keçirilməsi ilə bağlı qərar qəbul edilib. Buna səbəb ifadə verən zərərçəkmişlərin videogörüntüləri ilə bağlı müzakirələrin olacağıdır. İttihama görə, həmin zərərçəkmişlər intim videogörüntüləri ilə şantaj edilib.

Məhkəmə prosesi davam edir.

İttihamda yazılır ki, S.Əliyev 47, H.Nəcəfli 46 epizodda ittiham edilir.

Surxay Əliyev epizodu üzrə 66 min manat, H.Nəcəfli epizodu üzrə 78 min manat, İ.Abbasovanın 7300 manat, M.Abbasov 7500 manat, S.Məmmədsalayeva 20 min manat, G.Əliyevanın epizodu üzrə 3900 manat ziyan dəydiyi bildirilib.

Surxay Əliyev və M. Abbasov özlərini təqsirli bilmədiklərini deyiblər. H.Nəcəfli, S. Məmmədsalayeva, İ.Abbasova qismən təqsirli bildiklərini söyləyiblər.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, DTX əməkdaşlarının keçirdiyi əməliyyat zamanı "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyev, "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyev və onun müavini Hikmət Nəcəfli saxlanılıb. Səbayel Rayon Məhkəməsinin qərarı ilə onların barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçib.




Məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarında dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər DTX-də araşdırılarkən Azərbaycan Respublikası ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb. DTX tərəfindən aparılan araşdırmaların nəticələri üzrə hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə belə tədbirlərin keçirilməsi faktları üzrə cinayət işi başlanılıb.

G.Əliyeva, İ.Qasımova və M.Abbasovun barəsində həbs-qətimkan tədbiri seçilməyib. S.Məmmədsalayeva isə daha əvvəl hədə-qorxu ilə tələb etmədə təqsirləndirilərək 6 il müddətinə azadlıqdan məhrum edilib. O, hazırda 4 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkir.

YENİ MÜSAVAT
N 29 (6918) 7 fevral 2018

# Ölkədə yayılan xəstəlik mübahisə doğurdu: paraqrip, yoxsa...

## Baş epidemioloq: “Laborator müayinə olmadan heç kimin ümumiləşdirmə aparmağa ixtiyarı yoxdur”

**“Payız və qış aylarında əhali arasında yayılan və qrip adlandırılan infeksiya əslində paraqripdir. Bu, qripdən intoksikasiya simptomlarının yüngüllüyü və ölüm faizinin aşağı olması ilə fərqlənir. Paraqrip yuxarı tənəffüs yollarının, xüsusən burun, udlaq və qırtlağın selikli qişasını zədələyən və zəif intoksikasiya əlamətləri ilə müşayiət olunan kəskin virus infeksiyasıdır”.**

**Bunu Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aynur Məmmədova AzərTAC-a deyib:** “İnkubasiya, yəni xəstəliyin gizli dövrü virusun tipindən asılı olaraq 2-7 gün davam edir. Xəstənin baş ağrısı, halsızlıq, yüngül titrətmə və əzələ ağrısından şikayət etməsi xəstəliyin başlandığını göstərir. Hərarət adətən subfebril olur, nadir hallarda çox qalxır, 2-3-cü sutkada ən yüksək şkalaya çatır. Xəstəliyin lap əvvəlindən burunda tutqunluq, boğaz ağrısı, səsin xırıltılı olması və quru öskürək müşahidə olunur. Zökəm və burundan çoxlu seroz möhtəviyyatın ayrılması xəstəni narahat edir. Böyüklər infeksiyanı uşaqlara nisbətən yüngül keçirir. Paraqripə yoluxan uşaqlarda badamcıqlar böyüyür, boğazda qızartı, az hallarda hallüsinasiya və meningeal sindrom müşahidə olunur”.

Onun məlumatına görə, xəstəliyə ən çox məktəbəqədər yaşda olan və ibtidai siniflərdə oxuyan uşaqlar yoluxur, onlara əksər hallarda kəskin respirator xəstəlik diaqnozu qoyulur. Kiçik yaşlı uşaqlarda qırtlaq sürətlə ödemləşir və onun mənfəzində selik toplanır, nəticədə paraqrip yalançı inaqla ağırlaşır. İnaq adətən gecə saatlarında başlayır, uşağın narahatlığı artır, tənəffüsü çətinləşir və səsi batır. Yetkin yaşlarda isə paraqrip pnevmoniya, angina, otit və ya sinusitlə ağırlaşa bitir, infeksiya fonunda xroniki xəstəliklər də kəskinləşir.

**Xəstəliyin müalicəsi haqqında danışan həkim-infeksionist daha sonra deyib:** “Paraqripin spesifik müalicəsi yoxdur, xəstələrə virus əleyhinə və immunomodulyator təyin olunur. Hərarətin 38,5 dərəcədən yüksəyə qalxdığı hallarda qızdırmasalıcılardan, öskürəklə ağırlaşma hallarında bəlğəmgətiricilərdən istifadə edilir. Zökəm əlamətlərini aradan qaldırmaq üçün buruna dəniz duzu məhlulu tökülür. Tərlədici vasitələrdən ən çox moruq, ondan hazırlanan mürəbbə, cökə çiçəkləri, bəlğəmgətiricilərdən biyan və gülxətmi kökləri, dəvədabanı, bağayarpağı, iltihab əleyhinə təsirli bitkilərdən isə adaçayı, çobanyastığı çiçəkləri, gülümbahar çiçəklərinin dəmləmələrindən istifadə edilməsi məsləhətdir. Orqanizmin müqavimətini artırmaq, vitaminə olan tələbatı ödəmək üçün ən yaxşı vasitələrdən itburnu meyvələrinin dəmləməsi və qara qarağat şirəsini qəbul etmək olar. Ətrafdakıların yoluxmaması üçün ilk növbədə xəstəni təcrid etmək, istifadə etdiyi dəsmal, boşqab və stəkanı ayırmaq lazımdır”.

Gördüyünüz kimi, ölkədə yayılan qriplə bağlı ortaya yeni tezis atıldı. Hazırda qrip sürəci keçirən şəxslər sözügedən əlamətləri oxuyan kimi özlərində bununla bağlı paralel aparırlar. Çünki bir neçə il öncəkilərlə müqayisədə müasir qripin əlamətləri fərqlidir və insanlar da yeni növ qripə yoluxduqlarını düşünürlər.



**Amma ölkənin baş epidemioloqu İbadulla Ağayev “Yeni Müsavat”a açıqlamasında bu tezisi tamamilə inkar etdi. Onun sözlərinə görə, laborator müayinə olmadan heç kimin belə bir açıqlama verməyə və ümumiləşdirmə aparmağa ixtiyarı yoxdur. Müsahibimiz dedi ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Taun Əleyhinə Stansiyası dünyanın müasir ölkələri ilə yanaşı gedən, onlardan da artıq aparat və cihazları olan mərkəzdir. Baş epidemioloq respublikanın ərazisində nümunə üçün əhalidən götürülən müayinələrin orada aparıldığını vurğuladı:** “Azərbaycanda belə bir nəticə yoxdur ki, yeni qrip növü aşkarlanıb. Laborator müayinə olmadıqca mən buna cavab verə bilmərəm. Ölkədə stabil durumdur. Kəskin respirator virus xəstəlikləri isə hər il olduğu kimi, dünyada və Azərbaycanda da var. Hər bir şəxs özünü xəstəlikdən qorumalıdır. Sizinlə danışan baş epidemioloq, professor dünən axşam az qala, soyuqdan ölmüşdü. Paltomu unutmuşdum, bir neçə kilometr pencəklə getdim. Özümü qorumamışam. Havaların soyuması ilə bağlı əhali üst geyimlərə fikir verməlidir. Ev qızdırılmırsa, qalın paltardan istifadə etsinlər. Xəstələnənlərdən - asqıranlardan, öskürənlərdən, burnundan su gələnlərdən xahiş edirəm ki, başqalarını yoluxdurmasınlar. Aptеklərdən maska alsınlar”.

**İ.Ağayev “şəhərdə klassik qrip yayılıb” fikrini də inkar etdi. Dedi ki, hazırda Azərbaycanda 4242 kənd var və bu kəndlərdə nə qədər qrip yayıldığını heç kim dəqiq deyə bilməz:** “Səhiyyə Nazirliyi gedib hamısına nəzarətçi qoya bilməz ki. Mən necə bilim ki, kimə hansı növ xəstəlik keçib? Şayiə kimi yayılır ki, filan xəstəlik filan yerdə var. Biz bunu nəzarətə götürürük axı. Ümumdünya Səhiyyə Təşkilatı bütün ölkələrin ərazisindəki xəstəliklər barədə məlumatlıdır. Ən pisi odur ki, insanlar özləri özlərini müalicə etməyə çalışırlar. Yazırlar ki, qrip yayılıb. Kim deyir ki, yayılıb? Hardan yayılıb? Hər 3 adamdan biri xəstə ola bilməz. Hesablamalarımız var. Mənim işlədiyim kafedrada 20 adam var, burda bir nəfər də xəstə yoxdur. Səmimiyyətimə inanın, mən sizə nə var, onu deyirəm”.

**İlk qarın yağması ilə qrip xəstəliyinin azalacağı arasında əlaqə olmasına gəlincə, baş epidemioloq buna da münasibət bildirdi. Dedi ki, bütün mikrobların yaşama müddəti var. Onun sözlərinə görə, havalar soyuyanda müəyyən törədicilər məhv olur:** “Ola bilər ki, qar yağanda virusların məhv olacağını deyən mütəxəssis olsun. Amma mən deyim ki, adi mikroskop belə o mikrobu görə bilmir. Mikrobun yaşama müddəti var. Bəllidir ki, soyuğa davamı olmayan mikroblar qarlı havalarda məhv olub gedir”.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# “Neft ehtiyatlarını gələcək nəsillərə saxlamaq mənasız işdir”

## Ekspert deyir ki, neft ehtiyatımız bizə 25 il bəs edəcək

**Azərbaycanda qeyri-neft iqtisadiyyatının qurulmasını zəruri edən səbəblərdən biri də ehtiyatların getdikcə tükənməsidir. Təkcə ölkəmizdə deyil, dünyada da 20-25 ilə neft ehtiyatlarının tükənəcəyi təxmin edilir. Bəs görəsən, Azərbaycan nefti nə zaman bitəcək? Həmin dövrdə nefti hansı enerji məhsulu əvəz edə biləcək?**



**“Yeni Müsavat”ın suallarını cavablandıran Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, neft ehtiyatlarımız bizə 25 il müddətinə bəs edəcək:** “Azərbaycanın neft ehtiyatları ilə bağlı hesabatlara baxsaq, bundan sonra bizim ən böyük yataq blokumuz ”Azəri-Çıraq-Günəşli"dir. Oradan çıxarıla biləcək ehtiyat hazırda 500 milyon tondan çoxdur. Bundan sonra Dövlət Neft Şirkətinin balansında olan yataqlarda təqribən 200 milyon ton neft ehtiyatı var. Ümumilikdə bizim 700 milyon ton neft ehtiyatımız var. Azərbaycanın illik neft hasilatına baxsaq, cari ildə neft hasilatımız təqribən 37 milyon ton olacaq. Qrafiklə götürsək, yaxın 15 il ərzində orta hesabla illik 30 milyon ton hasilat gözlənilir. Bu o deməkdir ki, 700 milyon tonluq neft ehtiyatımız bizə 25 il müddətinə bəs edəcək. Təqribən 2042-ci ilə qədər olan dövrdə neft hasilatı davam edəcək. Ancaq ən aşağı templə götürsək, məsələn, illik hasilat 10 milyon tona düşsə, neft ehtiyatlarımız 2060-cı ilə qədər olan dövrü də əhatə edər. Əgər bundan sonra hər hansı yeni metod tətbiq olunmasa, neft ehtiyatlarımız bu əmsalla çıxarılsa, təqribən 2060-cı ildə neftimiz tükənə bilər. Lakin bu deyilənlər sırf neftə aiddir".

**Ekspertin sözlərinə görə, neftdən fərqli olaraq kondensat hasilatı qarşıdakı illərdə arta bilər:** “Neftdən əlavə, maye karbohidrogen adlanan kondensat da var. Bu yüzillikdə Azərbaycanın karbohidrogen hasilatında böyük bir yeri qaz tutur. Qazla paralel olaraq kondensat da hasil edilir. Bu isə ona gətirib çıxarır ki, kondensat hasilatı da neftin bir qolu kimi gündəmə gəlir. Hazırda ”Şahdəniz 1" layihəsindən biz ildə orta hesabla 2,5 milyon ton kondensat hasil edirik. Təqribən 2021-ci ildə “Şahdəniz 2" layihəsi tam gücünə çatanda, 16 milyard kubmetr qaz hasil edilənдə artıq əlavə olaraq, 3,5 milyon ton da kondensat hasil ediləcək. Ümumilikdə ”Şahdəniz" layihəsi üzrə 6 milyon ton kondensat hasilatı proqnoz edilir. Həmçinin kondensat hasilatı “Abşeron” yatağından da çıxarılır. “Abşeron”un birinci fazasından700 min ton kondensat hasil edilməsi planlaşdırılır. İkinci fazasından isə bundan 2 dəfə çox kondensat hasil edilməsi nəzərdə tutulur. Yəni ümumilikdə 2 milyon ton da oradan kondensat hasilatı gözlənilir. Kondensat hasilatı həm “Bulla”, həm də “Ümid” yatağında kondensat hasilatı olacaq. Bu nə qədər davam etsə, Azərbaycanın öz daxil tələbatı üçün Neft Emalı zavodunda neft emal edib özümüzün tələbatını ödəmək üçün lazımdır. Biz adicə bu yataqlardan çıxan kondensatı alıb emal etsək, bizim ehtiyaclarımız 2050-ci illərə qədər ödəyə bilər. Həmin müddət ərzində hasilat bir qədər azalacaq.

Bizim hazırkı proqnozlarımız 2018-ci ildən baxışdır. Deyə bilmərik ki, 2030-cu ildə neftin çıxarılma əmsalını nə qədər artırmaq olar. Bu gün Azərbaycanın quru yataqlarında, əsasən çar Rusiyası və SSRİ dövründə geoloji ehtiyatların çıxarılma əmsalı 20-25 faiz arasında olub. Ancaq BP şirkəti “Azəri-Çıraq -Günəşli”də nefti 50 faiz civarında çıxarır. Əgər biz 10-15 ildən sonra qurudakı yataqları - “Abşeron”un, “Siyəzən”in və digərlərinin neft çıxarma əmsalını 10 faiz artırsaq, bu bizə əlavə 100 milyon verə bilər. O baxımdan texnologiyadan və onların mənimsənilməsindən çox şey asılıdır".

**İlham Şaban onu da vurğuladı ki, neft ehtiyatlarını gələcək nəsillərə saxlamaq mənasız bir işdir. Çünki zaman keçdikcə, dünya enerji bazarında neftə tələbat azalacaq:** “Bir çox ölkələrin 50 il, 100 il öncə çox böyük kömür ehtiyatları olub. Lakin onun hamısını çıxartmayıblar, buna imkanları olmayıb. Ancaq artıq kömürə ehtiyac əvvəlki qədər deyil. Kömür əsasən enerji sektorunda və metallurgiyada istifadə edilən bir yanacaqdır. Ona ehtiyac da get-gedə azalır. Əgər kömürü vaxtında çıxartmayıblarsa, eləcə də yerin altında qalacaq. Bilmək olmaz, bəlkə 50 ildən sonra neftə ehtiyac olmayacaq. Ona görə də əgər hər hansı xammala müəyyən bir dövrdə tələbat varsa, həmin müddətdən istifadə etmək lazımdır. Bəzi insanlar ki, deyirlər gəlin nefti nəvə-nəticələrimizə saxlayaq, bu absurd yanaşmadır. Biz nəvə-nəticələrimizə bacarıq saxlamalıyıq ki, onlar öz dövrlərində biorobotlarla, başqa texnologiyalarla məşğul olsunlar”.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 29 (6918) 7 fevral 2018



# İnternetdə tanış olduğu qadınlar sayəsində Avropanı havayı gəzdi

Avropa səyahətinə çıxan 25 yaşındakı Antoni Botta bir qəpik belə xərcləmədən səfər edir. Tinder vasitəsilə tanış olduğu qadınların evində qalan Botta bunun sayəsində dünya səyahətini havayı edir. Brüsseldə yaşayan adam 20 fərqli şəhər gəzdi. Tanış olduğu 21 qadının evində qonaq qalan Botta bu səfər kəşfinə Tinder-surfing adını verib. Motta Avropanı heç pul xərcləmədən gəzən ilk insan olduğunu iddia edir.

Instagram və Youtube-dan səfəri ilə bağlı şeylər paylaşan italyan oğlan Tinderin istifadəçiləri insanlarla cütləşmək istədikləri şəhərləri seçmələrinə icazə verən pullu versiyasından istifadə edir. Antoni iki aylıq səfəri zamanı Belçika, Hollandiya, Almaniya, Avstraliya, Macarıstan, Polşa, Slovakiya və Çexiya kimi ölkələrə gedib. Antoni bəzən ev sahibi ilə gecələdiyini, bəzənsə divanda gecələdiyini deyir.

"Həqiqətən də vasvası deyiləm, çünki son nəticədə tək istədiyim şey qalacaq bir yerdir" deyən Botta Vyana xaricində istədiyi hər şəhərdə qalacaq bir ev tapmağa nail olub. Vyanaya isə Bratislavada qalaraq gedib gəlmiş.

# Arvadı intihar etmək istəyirdi, saçından tutdu

Çində bir kişi intihar etmək istəyən həyat yoldaşını xilas edib. O, yüksək damın başından özünü atmaq istəyən yoldaşının saçından tutaraq onun yerə yıxılmasının qarşısını alıb. Lenta.ru saytı bu barədə xəbəri yazaraq onun videosunu da yayıb. İnsident ölkənin Şensi bölgəsində baş verib. Qadın ailə münaqişəsindən sonra damın başından özünü atmaq istəyib. Bu zaman əri onun saçından tutaraq, yıxılmasının qarşısını ala bilib. Kişi həyat yoldaşını üç dəqiqə ərzində saçlarından tutulu vəziyyətdə saxlaya bilib. Kişinin buna nail olmasının səbəbi isə qadının ağır çəkili olmaması və yerə düşərkən 30 santimetrlik turbadan yapışması olub. Hadisə yerinə gələn polislərdən biri dama çıxaraq qadını və həyat yoldaşını xilas etməyə nail olub.



# Heyvan "tətil" edirsə, depressiyaya girir

Fransada aparılan bir araşdırma sübut edib ki, sahibləri ilə birgə istirahətə gedən heyvanlar tətildən sonra neqativ hərəkətlər edir. Araşdırmaya siam pişiyi ilə qatılan Filip Uzan bildirib ki, tətildən evə qayıdandan sonra pişik bir neçə gün yatağını və xalçanın üstünü kirlədib. Alman qurd it sahibi olan Monique Gastinel də deyib ki, istirahətdən qayıdandan sonra iti narazı görünür və onun əmrlərini yerinə yetirmir. Heyvan psixoloqu Aline Auble isə deyib ki, bu, heyvanlar üçün normal durumdur. Çünki onlar da insanlar kimi yeni yerlər görməyi, yeni insanlarla tanış olmağı arzulayırlar. Psixoloq hesab edir ki, tətildən sonra şıltaqlıq edən heyvanları cəzalandırmaq əvəzinə, onlara yeni oyuncaqlar alınmalı, evdə qalmağın gözəllikləri aşılanmalıdır. Araşdırmanı imzalayan Celine Moussour isə deyib ki, bu müddətdə yemək yeməyi rədd edən və damlarından çıxmaq istəməyən heyvanları buna məcbur etmək doğru deyil.



# Sırf gəlinciyə bənzəsin deyə... 100 min dollarından keçdi

Braziliyanın San Paulu şəhərində yaşayan bir qadın Barbi gəlinciyinə bənzəmək üçün çoxlu sayda plastik əməliyyat keçirib. O, bunun üçün 100 min dollar sərf edib. Bu barədə "Daily Mail" xəbər verib. Cenifer Pamplon adlı qadın model olaraq çalışır və o, arzuladığı görünüşə qovuşmaq üçün onlarla cərrahiyyə əməliyyatı keçirib. Xəbərdə qeyd olunur ki, qızı buna həvəsləndirən onun ölən sevgilisi olub. Sonuncu plastik cərrahiyyə əməliyyatı həvəskarı olub: "Plastik cərrahiyyə onun ölümündən sonra məni depressiyadan xilas etdi". Bunu da o deyib.

Gənc qıza bu prosedurları amerikan tele-şoularından birində, canlı efirdə etmək təklifi gəlib. O, bu təklifi alan kimi sinəsini, yançaqlarını böyüdüb, rinoplastika etdirib və sair. Hazırda 24 yaşlı qızı doğma valideynləri çətinliklə tanıya bilir. Braziliyalı qız ailə üzvlərinin və ona nifrət edən şəxslərin neqativ münasibətinə baxmayaraq, plastik əməliyyatları davam etdirəcək. Fevral ayında xəbər yayıldı ki, Britaniyanın Nottinqem qraflığında Laura Alisiya Sammers adlı qadın plastik əməliyyatlar üçün 200 min dollar pul sərf edib.

# Qoroskop




**QOÇ** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi hakim bürc sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**BUĞA** - Planetiniz olan Veneranın aktivlik nöqtəsində dayanması ümumi ovqatınıza yaxşı təsir göstərəcək. Bu hal bir xeyli sürəcək. Odur ki, tərəddüddən qorxmayın, vacib planları həyata keçirməyə çalışın.

**ƏKİZLƏR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq tədbirli olun.

**QIZ** - Ulduzlar göstərir ki, ayın uğurlu bir gününü yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdür. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**ƏQRƏB** - Mənfi enerjili Ayın bürcünüzdə qərar tutması sizin üçün süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar atmaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**OXATAN** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**OĞLAQ** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınları 25 yaşdan sonra ağlatmaq çətin olur



Statistikaya görə, ən az ağlayan qadınlar belə ömürlərinin 16 ayını göz yaşı axıtmaqla keçirirlər. Araşdırmaya görə, göz yaşı axıtmanın böyük qismi uşaqlıq, yeniyetməlik və gənclik çağına təsadüf edir. Bu norma isə orta yaş dövründə nisbətən ən azalır. Qadınlar 19 yaşdan sonra çox az hallarda ağlayırlar. Onlar bu dövrdən sonra ciddi səbəb olmadan göz yaşı axıtmağı özləri üçün əksiklik hesab etdiklərindən, bu cür vərdişlərini unutmağa çalışırlar. 19-23 yaş arası tökülən göz yaşlarının əsas səbəblərinin sevgi və romantik filmlər olduğu bildirilir. Qadınları ən çox üzən səbəblər isə uzun zaman sürən münasibətlərin bitməsi olur. İddialara görə, qadınları 25 yaşdan sonra ağlatmaq elə də asan olmur. Bu yaşdan sonra onları ağladan yeganə şey romantik filmlərdir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100